# Ə M L A K   S I Ğ O R T A S I

# Q A Y D A L A R I

Bakı - 2011

**MÜNDƏRİCAT**


| | |
|---|---|
| **MÜNDƏRİCAT** | **2** |
| **SIĞORTA SİNFİ** | **3** |
| **ÜMUMİ ANLAYIŞLAR** | **3** |
| **ÜMUMİ MÜDDƏALAR** | **4** |
| **Maddə 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ** | **4** |
| **Maddə 2. SIĞORTAÇININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **4** |
| **Maddə 3. SIĞORTALININ HÜQUQ VƏ VƏZİFƏLƏRİ** | **5** |
| **Maddə 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ** | **6** |
| **Maddə 5. SIĞORTA MƏBLƏĞİ** | **6** |
| **Maddə 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ** | **6** |
| **Maddə 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ** | **8** |
| **Maddə 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ** | **8** |
| **Maddə 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI** | **8** |
| **Maddə 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR** | **8** |
| **Maddə 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI** | **9** |
| **Maddə 12. SUBROQASİYA HÜQUQU** | **10** |
| **Maddə 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ** | **10** |
| **Maddə 14. XÜSUSİ ŞƏRTLƏR** | **10** |
| **Maddə 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI** | **10** |
| **Maddə 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI** | **10** |
| **Maddə 17. SANKSiYALARA DAİR MADDƏ** | **10** |
| **ƏMLAKIN YANĞIN VƏ DİGƏR ƏLAVƏ RİSKLƏRDƏN SIĞORTASI İLƏ BİRLİKDƏ VERİLƏ BİLƏCƏK ƏLAVƏ ŞƏRTLƏRİ - Maddi Zərər** | **11** |
| **ƏMLAKIN YANĞIN VƏ DİGƏR ƏLAVƏ RİSKLƏRDƏN SIĞORTASI İLƏ BİRLİKDƏ VERİLƏ BİLƏCƏK ƏLAVƏ ŞƏRTLƏRİ - FƏALİYYƏTDƏ MƏCBURİ FASİLƏ** | **20** |
| **ƏMLAKIN YANĞIN VƏ DİGƏR ƏLAVƏ RİSKLƏRDƏN SIĞORTASI İLƏ BİRLİKDƏ VERİLƏ BİLƏCƏK ƏLAVƏ TƏMİNATLAR** | **26** |
| **BÜTÜN RiSKLƏR SIĞORTASI** | **31** |
| **TERRORA QARŞI SIĞORTA - FİZİKİ İTKİ VƏ YA FİZİKİ ZİYAN İLƏ BAĞLI İLKİN ŞƏRTLƏR** | **36** |
| **TERRORA QARŞI SIĞORTA - İŞ FƏALİYYƏTİN DAYANDIRILMASI ÜZRƏ ƏLAVƏNiN İLKİN ŞƏRTLƏRİ** | **43** |
| **ƏLAVƏ TƏMİNAT - ELEKTRON CİHAZ VƏ AVADANLIĞININ SIĞORTASI** | **46** |

## SIĞORTA SİNFİ

Bu sığorta qaydaları ilə müəyyən olunan sığorta növü sinfinə görə əmlakın yanğından və digər risklərdən sığortası sinfinə aiddir.

## ÜMUMİ ANLAYIŞLAR

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**Sığortaçı** - sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfidir.

**Sığortalı** - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfidir.

**Sığorta olunan** - əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir.

**Faydalanan şəxs** - sığorta qanunvericiliyinə və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır.

**Sığorta obyekti** - sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyidir.

**Sığorta predmeti** - sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır.

**Qismən sığorta** - müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**Azadolma məbləği** - sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur. Sığorta müqavilələrində şərtli və ya şərtsiz azadolma məbləği müəyyən oluna bilər.

- **Şərtli azadolma** - məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda zərər məbləğindən azadolma məbləği çıxılmır.
- **Şərtsiz azadolma** - məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

**Sığorta haqqı** risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Sığorta məbləği** - Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

## ÜMUMİ MÜDDƏALAR

Bu Qaydalar Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanmışdır.

## 1. SIĞORTANIN ƏHATƏ ETDİYİ ƏRAZİ

Tərəflərin başqa cür razılaşdığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, sığorta Azərbaycan Respublikasının ərazisini əhatə edir.

## TƏRƏFLƏRİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**2. Sığortaçının hüquq və vəzifələri:**

**2.1.** Risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalıdan sığorta haqqını tələb edir.

**2.2.** Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün ilk hissəsi ilə bağlı sığorta müqaviləsi bağlandığı gündən, digər hissələrlə bağlı isə ödəmə tarixindən 1 aydan gec olmamaq şərti ilə yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

**2.3.** Sığortaçı sığortalanmış risklər üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği həddində öhdəlik daşıyır.

**2.4.** Sığorta məbləğlərini, sığorta riskləri, sığorta risklərindən istisnaları və (və ya) sığorta təminatında məhdudiyyətləri müəyyən edir.

**2.5.** Sığortalıdan riskinin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları verməsini tələb edir;

**2.6.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməsini tələb edir;

**2.7.** Sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməməsini tələb edir;

**2.8.** Sığortalının sığorta hadisəsi yaranmasına yönəldilən qərəzli hərəkətləri və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməməsini tələb edir;

**2.9.** Sığortalının sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görməsini tələb edir;

**2.10.** Sığorta predmeti və hadisəsi barədə sığortalıdan aydın və düzgün məlumat verməsini tələb edir, sığortalının bildirdiyi məlumatın yanlış və ya yarımçıq olması məlum olarsa:

**2.10.1.** Sığortalı bu hərəkəti qəsdən etmişdirsə, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və sığorta hadisəsi baş verərsə, ödəniş verməkdən imtina edə bilər.

**2.10.2.** Sığortalı hərəkətinin qəsdən etmədiyi müəyyən olarsa, sığortaçı vəziyyəti öyrəndiyi tarixdən etibarən sığorta müqaviləsini ləğv edə bilər və ya həmçinin sığorta müqaviləsinin şərtlərini dəyişdirə və ya əlavə sığorta haqqı almaqla sığorta müqaviləsini qüvvədə saxlaya bilər.

**2.11.** Bu qaydalarda nəzərdə tutulan şərtlərin sığortalı tərəfindən yerinə yetirilməməsi nəticəsində dəyən zərərin əvəzinin ödənilməsindən imtina edir;

**2.12.** Sığorta hadisələri təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini həyata keçirir.

**2.13.** Sığortaçı sığorta müqaviləsi bağlanarkən sığortalıdan sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatları tələb edir və əlavə zəruri məlumatların siyahısını tərtib edərək, yazılı müraciət formasında sığortalıya göndərir.

**2.14.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçı hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir.

**2.15.** Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

**2.16.** Sığortaçı sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda sığorta müqaviləsi ilə müəyyən olunmuş qaydada sığorta ödənişini verir.

**2.17.** Sığorta hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir.

**2.18.** Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azad edilir.

**2.19.** Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında) sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir.

**2.20.** Sığortalının bu sığorta qaydaları ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortalıya sığorta müqaviləsi verir.

**2.21.** Sığorta müqaviləsi itdikdə və ya məhv olduqda sığortalı və ya sığorta olunan onun dublikatını sığortaçıdan şifahi və ya yazılı şəkildə tələb edə bilər. Bu tələbin yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində sığortaçı sığortalını və ya sığorta olunanı müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta müqaviləsinin dublikatı ilə təmin edir.

**2.22.** Sığortaçı sığorta predmeti barəsində sığortalı tərəfindən aydın və düzgün məlumat verilməsini tələb edir. Bu məlumatlarla bağlı sığortalı tərəfindən qəsdən yanlış məlumat verilərsə sığortaçı sığorta predmetinin sığorta müqaviləsində müəyyən edilmiş dəyərini mübahisələndirir.

**2.23.** Sığorta müqaviləsi bağlanarkən müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə sığortalının tanış olmasını təmin edir.

**2.24.**Sığortalını sığorta şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış edir.

**2.25.**Sığorta müqaviləsi bağlayarkən sığortaçı sığortalanan predmetə baxış keçirə, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirə, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin edə bilər.

**2.26.**Sığortaçı sığorta müqaviləsi üzrə sığortalanan əmlakı, həmçinin sığorta risklərini bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə qiymətləndirə bilər. Bu halda müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**2.27.**Sığortaçı 6.8-ci bəndində qeyd olunan hallar mövcud olarsa sığorta müqaviləsinə vaxtından əvvəl xitam verir.

**2.28.**Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortaçı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**2.29.**Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan şəxs, həmçinin faydalanan şəxs hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırır.

**2.30.**Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlərin və məlumatların alınması ilə bağlı səlahiyyətli dövlət orqanlarına yazılı sorğunu sığortalıya verərək müvafiq sənədlərin təmin edilməsini tələb edir.

**2.31.**Bu qaydaların 15-ci maddəsində müəyyən edilmiş subroqasiya hüququndan istifadə edir.

**2.32.**Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

## 3. Sığortalının hüquq və vəzifələri:

**3.1.** Bu qaydalarla nəzərdə tutulan şərtlərin sığortaçı tərəfindən yerinə yetirilməsini tələb edir;

**3.2.** Sığorta hadisəsinin təsiri nəticəsində sığortalının əmlak mənafelərinə dəyən zərərin əvəzinin tam və ya qismən ödənilməsi miqdarında sığorta ödənişini tələb edir;

**3.3.** Sığorta müqaviləsində qeyd olunan sığorta haqqını ödəyir;

**3.4.** Sığorta riskləri barədə sığortaçıya məlumat verir;

**3.5.** Riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişikliklər barədə bildiyi və ya bilməli olduğu məlumatları sığortaçıya bildirir;

**3.6.** Sığorta predmetinin və hadisəsinin araşdırması üçün sığortaçıya müvafiq şəraiti yaradır:

**3.6.1.** Sığortalanan əmlaka baxış keçirmək;

**3.6.2.** Sığortalanan əmlakın olduğu yerləri və yerin yaxınlığındakı binaya (qurğu və ya evin) baxış keçirmək;

**3.6.3.** Sığortalanan əmlakın real dəyərinin müəyyənləşdirilməsi məqsədi ilə keçirilən ekspertizada iştirak etmək.

**3.7.** Sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri görür;

**3.8.** Sığorta predmeti və hadisəsi barədə sığortaçıya düzgün və aydın məlumat verir;

**3.9.** Bu qaydalarda nəzərdə tutulan şərtləri yerinə yetirir, əks təqdirdə əmlak mənafelərinə dəyən zərərin əvəzinin sığortaçı tərəfindən tam və ya qismən ödənilməsini tələb etmə hüququnu itirir.

**3.10.**Sığorta müqaviləsi bağlanarkən sığortalı sığorta riskinin müəyyən olunması və sığorta haqqının hesablanması üçün zəruri və ona məlum olan bütün halları və məlumatı sığortaçıya bildirir.

**3.11.**Sığorta müqaviləsinə bu qaydaların 6.9-cu bəndinin tələblərinə əsasən sığortalı tərəfindən vaxtından əvvəl xitam verilə bilər. Bu halda:

**3.11.1.** Sığortalı, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçıdan həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarının ona qaytarmasını tələb edir, əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçıdan sığorta haqlarını bütünlüklə sığortalıya qaytarılmasını tələb edir.

**3.11.2.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların bu qaydaların 10-cu maddəsinin tələblərinə əsasən həyata keçirilir.

**3.12.** Sığorta hadisəsinin baş verməsi barədə hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verir.

**3.13.**Sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləğini bərpa edilə bilər.

**3.14.**Sığortalı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən sığorta riskinin artması ilə bağlı bütün hallar barədə sığortaçıya məlumat verir.

**3.15.**Sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda və müqaviləyə xitam verilməsində maraqlı olan sığortalı digər tərəfi bu barədə xəbərdar edir və ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərir.

**3.16.**Qanunvericiliyə və bu qaydalara uyğun digər hüquq və vəzifələrini həyata keçirir.

**3.17.**İtki, ziyan və ya zərərin qarşısını alma öhdəliyi

Sığortalı

(a) sığortalanan Əmlakın saz vəziyyətdə saxlanılması və itki, ziyan və ya zərərin qarşısını almaq üçün öz hesabına bütün mümkün ehtiyat tədbirlərinin görülməsini təmin etməlidir.

(b) işçilərin seçməsində və onlara nəzarətdə ehtiyat göstərməlidir.

(c) hər bir hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş və qoyulmuş öhdəlikləri icra etməlidir.

Mülkləri nəzarət etmək üçün Sığortaçının nümayəndəsinin Mülklərə hər zaman daxil olma imkanı olmalıdır.

## 4. SIĞORTA HADİSƏSİ BAŞ VERDİKDƏ SIĞORTALININ VƏZİFƏLƏRİ

**4.1.** Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda, qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. Sığorta müqaviləsində məlumat verməyin müddəti və yaxud üsulu göstərilmişdirsə, o, müəyyən olunmuş müddətdə və həmin üsulla həyata keçirilməlidir.

**4.2.** Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan şəxs, həmçinin faydalanan şəxs bu qaydaların 7.1-ci bəndi ilə nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə, sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

**4.3.** Sığortalı baş verən hadisə barəsində səlahiyyətli dövlət orqanlarına məlumat verməyə və qanunvericiliklə ona aid edilmiş bütün öhdəlikləri yerinə yetirməyə borcludur.

**4.4.** Sığorta hadisəsi zamanı sığortalı mümkün zərərin qarşısını almaq və miqdarını azaltmaq üçün bütün ağlabatan və mümkün tədbirləri görməlidir.

**4.5.** Belə tədbirlər həyata keçirilərkən sığortalı sığortaçıdan aldığı təlimatları yerinə yetirməlidir.

**4.6.** Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etmək və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.

**4.7.** Sığortalı sığorta hadisəsi nəticəsində zərər çəkmiş sığorta predmetini sığortaçı baxış keçirənə qədər sığorta hadisəsindən sonra düşdüyü vəziyyətdə saxlamağa borcludur.

**4.8.** Zərər görmüş əmlak təmir etdiriləcəkdirsə təmir yeri təmir başlanana qədər sığortaçı ilə razılaşdırılmalıdır.

**4.9.** Sığortalı sığorta hadisəsinə aid bütün sənədləri və məlumatı sığortaçıya təqdim etmək, həmçinin hadisənin digər iştirakçılarının və sığorta hadisəsi ilə bağlı məsələlərə baxan səlahiyyətli dövlət orqanlarının bütün hərəkətləri barədə təxirə salınmadan məlumat vermək öhdəliyi daşıyır.

**4.10.** Sığortalı sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət etməyə, saziş imzalamağa və ya vəd verməyə haqlı deyildir.

**4.11.** Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır.

**4.12.** Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin ölçüsünü sübut etmək sığortalının vəzifəsidir.

**4.13.** Sığorta hadisəsi faktının və şəraitinin, eyni zamanda zərərin miqdarının sübut edilməsi üçün sığortalı malik olduğu və həmçinin qanunvericiliyə və adi təcrübəyə müvafiq olaraq əldə etməli bütün sənədləri sığortaçıya təqdim etməyə borcludur.

## 5. SIĞORTA MƏBLƏĞİ

Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının sığorta müqaviləsi ilə müəyyənləşdirilmiş öhdəliyinin son həddidir.

**5.1.** Bu qaydalara əsasən sığorta məbləği sığorta predmetinin sığorta müqaviləsi bağlandığı andakı həqiqi dəyərindən - sığorta dəyərindən çox olduğu halda (ikili və ya çoxqat sığorta halında), həmin müqavilə sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində etibarsızdır.

**5.2.** Sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı sığorta müqaviləsində qeyd olunur.

## 6. SIĞORTA MÜQAVİLƏSİNİN BAĞLANILMASI, ƏLAVƏ VƏ DƏYİŞİKLİKLƏR EDİLMƏSİ, XİTAM VERİLMƏSİ

**6.1.** Sığorta müqaviləsi sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**6.2.** Sığorta müqaviləsi tərəflərin bu qaydalar əsasında yazılı formada tərtib etməsi, qarşılıqlı imzalaması və ya sığortalının bu qaydalar ilə razı olduğunu təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən sığortalıya sığorta müqaviləsinin verilməsi yolu ilə bağlanır.

**6.3.** Sığorta müqaviləsinə ediləcək əlavə və dəyişikliklər qanunvericiliyin tələblərinə uyğun olaraq tərəflərin qarşılıqlı razılaşması yolu ilə həyata keçirilir.

**6.4.** Sığorta müqaviləsi müəyyən müddət üçün bağlanılır.

**6.5.** Sığorta yalnız müqavilənin (şəhadətnamənin) qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrinə təminat verir.

**6.6.** Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

**6.7.** Azərbaycan Respublikasının qanunvericiliyində əqdlərin etibarsızlığı ilə bağlı ümumi əsaslarla və aşağıdakı hallarda sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır:

**6.8.** sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;

**6.8.1.** sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);

**6.8.2.** Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək sığortaçının və həmin şəxsin razılığı ilə onu dəyişdirmək hüququna malikdir.

**6.9.** Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

**6.9.1.**

(a) Maddi Zərərə aid olaraq, bu bölmələrin hər hansı bəndində edilən hər hansı dəyişikliklə əlaqədar olaraq:

(i) itki, məhv olma və yaxud zədələnmə riskinin artırıldığı nəzərdə tutulan halda; və yaxud

(ii) vəsiyyətə əsasən və yaxud qanunun təsiri ilə olan hallar istisna olmaqla, Sığortalının marağının qurtarması nəzərdə tutulan halda;

(b) İş Fəaliyyətində məcburi Fasilələrə aid olaraq:

(i) İş Fəaliyyəti ləğv olunduğu və yaxud ləğv edən və ya alan şəxs tərəfindən idarə olunduğu və yaxud qeyri-müəyyən müddətə dayandırıldığı halda; və yaxud

(ii) Sığorta Olunanın ölümündən başqa digər hallarda Sığorta Olunanın marağı qurtardığı halda; və yaxud

(iii) İş Fəaliyyətində, Mülkdə və yaxud əmlakda Zərər riskinin artırılmasını nəzərdə tutan hər hansı dəyişikliyin edildiyi halda,

Sığortaçı tərəfindən və yaxud onun adından imzalanmış qeydlə bu sığortanın davam etməsinə icazə verilməyibsə, bu sığorta başladığı tarixdən sonra istənilən zaman ləğv olunacaqdır.

**6.9.2.** Müqavilənin qüvvədə olduğu müddət bitdikdə;

**6.9.3.** Sığortaçı sığortalı qarşısında öz öhdəliklərini yerinə yetirdikdə;

**6.9.4.** Sığortalı sığorta haqqını müqavilədə müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.5.** Məhkəmə sığorta müqaviləsinin etibarsız olduğu barədə qərar verdikdə;

**6.9.6.** Sığorta predmeti artıq mövcud olmadıqda;

**6.9.7.** Aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

**6.9.7.1.** sığorta müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu, habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri mülki qanunvericiliklə müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

**6.9.7.2.** qanunvericilikdə və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

**6.9.7.3.** başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

**6.9.7.4.** sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri qanunvericiliyə uyğun olaraq müvafiq hüquq varisinə keçir.

**6.9.8.** Sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

**6.9.9.** Sığorta qanunvericiliyində, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı dəyişdirilə bilər;

**6.9.10.** Sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

**6.9.11.** Sığorta marağı artıq mövcud olmadıqda;

**6.9.12.** Sığortalı sığorta haqqını qanunvericilikdə və sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

**6.9.13.** Azərbaycan Respublikasının Qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 7. SIĞORTA MÜQAVİLƏSİNƏ VAXTINDAN ƏVVƏL XİTAM VERMƏNİN NƏTİCƏLƏRİ

**7.1.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

**7.2.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır.

**7.3.** Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

**7.4.** Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması bu qaydaların 7.1-ci və 7.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

**7.5.** Sığorta müqaviləsinə bu qaydalarda və ya qanunvericiliklə müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 7.3-cü və 7.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

## 8. ZƏRƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

**8.1.** Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda icbari sığorta müqavilələri üzrə sığorta ödənişləri verilir. Bu zaman könüllü sığorta müqaviləsi bağlamış sığortaçı sığortalı (sığorta olunan və ya faydalanan şəxs) qarşısındakı öhdəliklərini öz istəyi ilə icbari sığorta müqaviləsi bağlamış sığortaçıdan əvvəl yerinə yetirə bilər.

**8.2.** Sığorta müqaviləsi üzrə sığortalı, sığorta olunan və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

**8.1.1.** Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

**8.1.2.** sığortaçı sığorta hadisəsi barədə bu qaydalarla nəzərdə tutulmuş şəkildə məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

**8.1.3.** digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

## 9. SIĞORTA ÖDƏNİŞİNİN HESABLANMASI QAYDASI

**9.1.** Sığortalanmış əmlaka vurulan zərərlərin həcmi müəyyən olunduqdan sonra sığorta ödənişinin hesablanması aşağıdakı üsullarla və ardıcıllıqla həyata keçirilir:

**9.1.1.** Qismən sığorta zamanı - sığorta məbləğinin sığorta dəyərinə olan nisbəti əsasında vurulmuş zərərlərə təminat verilir;

**9.1.2.** Sığorta müqaviləsində azadolma nəzərdə tutulduqda - azadolma məbləği çıxılmaqla zərərlərə təminat verilir;

**9.2.** Sığorta müqaviləsi üzrə sığorta ödənişlərinin ümumi miqdarı sığorta məbləğini aşa bilməz.

## 10. SIĞORTA ÖDƏNİŞİNİN HƏYATA KEÇİRİLMƏSİ QAYDASI VƏ ŞƏRTLƏRİ, SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİ ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR

Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**10.1.** Sığorta ödənişi aşağıdakılara əsasən həyata keçirilir:

**10.1.1.** sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi;

**10.1.2.** sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

**10.1.3.** qanunvericilikdə və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər.

**10.2.**Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını bu qaydaların 13.1-ci bəndində göstərilən sənədlərin və ekspert rəyinin əsasında sığorta müqaviləsi üzrə sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir. Bu zaman sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirə bilər.

**10.3.**Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert və ya sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər tərəfindən aparılır və bu zaman sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**10.4.**Sığortaçı sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra 30 təqvim günü ərzində sığorta ödənişini verir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişi verməkdən imtina edir.

**10.5.**Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra sığorta hadisəsi üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında aşağıdakı formalarda həyata keçirilir:

**10.5.1.** zərər məbləğinin pul şəklində sığortalıya (sığorta olunana) və ya faydalanan şəxsə ödənilməsi;

**10.5.2.** sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

**10.5.3.** sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

**10.6.**Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**10.7.**Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, bu halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığortaçı sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik edə bilər.

**10.8.**Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya sığorta olunana, habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından çox ola bilməz.

## 11. SIĞORTA ÖDƏNİŞİNİN VERİLMƏSİNDƏN İMTİNANIN ƏSASLARI

**11.1.**Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

**11.1.1.** sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda, habelə zərər dəymiş əmlakın ona təqdim edilməsi ilə bağlı bu qaydaların 11.2-ci bəndinə riayət edilmədikdə;

**11.1.2.** qanunvericilikdə nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin sığorta hadisəsinin baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

**11.1.3.** müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

**11.1.4.** sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

**11.1.5.** sığortaçının sığorta hadisəsinin baş verməsi səbəblərini araşdırmasına sığortalı tərəfindən maneçilik törədilməsi, o cümlədən bu qaydaların 11.2.1-ci bəndində müəyyən edilmiş məqsədlər üçün zəruri tədbirlərin görülməsi halları istisna olmaqla, digər hallarda əmlakın hadisə yerindən kənarlaşdırılmasının sığortaçını hadisənin səbəblərini və ya zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

**11.1.6.** bu qaydaların 14.2-ci bəndi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

**11.1.7.** əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

**11.1.8.** baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

**11.1.9.** Sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin sığorta müqaviləsində nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, sığortaçının bu barədə yazılı xəbərdarlıqla son ödəmə müddəti müəyyən edilmişdirsə bu müddətin bitməsindən 3 gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;

**11.1.10.** sığorta qanunvericiliyində və ya sığorta qaydalarında nəzərdə tutulmuş digər hallarda.

**11.2.**Sığorta müqaviləsi bağlanarkən və ya bağlandıqdan sonra sığortalı özünə məlum olan və sığortaçının müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməmişdirsə.

**11.3.**Sığortalının sığorta qanunvericiliyində və ya bu qaydalarla nəzərdə tutulmuş vəzifələrini yerinə yetirmədiyi hallarda.

**11.4.**Sığorta qanunvericiliyi və bu qaydalarla nəzərdə tutulmuş digər hallarda.

## 12. SUBROQASİYA HÜQUQU

**12.1.**Subroqasiya - Sığorta ödənişinin həyata keçirilməsindən sonra, Sığorta olunanın səhhətinə vurulan zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı subroqasiya qaydasında tələb irəli sürmək hüququ, həmin ödəniş məbləği həddində Sığortaçıya keçir.
**12.2.**Sığortalı (Sığorta olunan) Sığortaçının subroqasiya hüququnun təmin edilməsi üçün öz imkanları çərçivəsində ona hər cür kömək göstərməli və Sığortaçını tələb irəli sürmək üçün zəruri olan bütün sənədlər, sübut və məlumatlarla təmin etməlidir.
**12.3.**Sığortalının(Sığorta olunanın) hər hansı məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təminat məbləğləri, ilk növbədə Sığortaçının sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcək.
**12.4.**Sığortaçı ilə Sığortalı arasında başqa cür razılaşdırıldığı və belə razılaşmanın Sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, Sığortalı (Sığorta olunan) zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri Sığortaçıya verməkdən imtina etdikdə, Sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir və ödənilmiş sığorta ödənişinin tam və ya müvafiq hissəsinin qaytarılması hüququnu əldə edir.

## 13. SIĞORTA MÜQAVİLƏSİNİN QAYDALAR ÜZƏRİNDƏ ÜSTÜNLÜYÜ

Bu Qaydalarda nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər qanunvericiliyə zidd olmadığı hallarda tərəflərin razılığı ilə sığorta təminatına daxil edilə bilər.

## 14. XÜSUSİ ŞƏRTLƏR

**14.1.**Sığorta müqaviləsində qanunvericiliyə, bu qaydalara və bunlarla əlaqədar olan əlavə şərtlərə (klozlara) zidd olmayan xüsusi şərtlər də yazıla bilər.
**14.2.**Sığorta müqaviləsinə əlavə və dəyişikliklər qarşılıqlı razılaşma əsasında yazılı şəkildə rəsmiləşdirilir.
**14.3.**Sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflər Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.
**14.4.**Sığorta predmeti bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində sığorta müqaviləsi etibarsızdır.
**14.5.**Sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə davamlı olaraq eynicinsli sığorta predmetinin müxtəlif hissələrinin oxşar şərtlərlə ayrı-ayrı dövrlər üzrə sığorta olunması vahid sığorta müqaviləsi tərtib edilməklə bir sığorta müqaviləsi əsasında həyata keçirilə bilər.
**14.6.**Sığortalı bu qaydaların 14.5-ci bəndində göstərilən əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmalıdır. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olsa belə sığortalı əldə etdiyi məlumatları sığortaçıya çatdırmalıdır.
**14.7.**Sığortalı tələb etdikdə sığortaçı bu qaydaların 14.5-ci bəndində nəzərdə tutulan müqavilənin aid olduğu əmlakın ayrı-ayrı hissələri üzrə sığorta müqaviləsi verməlidir.

## 15. İŞ SİRLƏRİNİN GİZLİ SAXLANILMASI

Sığortaçı, sığortalıya aid öyrənəcəyi iş sirlərini gizli saxlamamaqdan dəyən ziyan və zərərlərə görə məsuliyyət daşıyır.

## 16. MÜBAHİSƏLƏRİN HƏLLİ QAYDASI

**16.1.**Sığorta müqaviləsi üzrə ortaya çıxan mübahisələr tərəflərin danışıqlar yolu ilə həll edilir.
**16.2.**Razılığa gəlinmədiyi təqdirdə mübahisələrə Azərbaycan Respublikasının mövcud qanunvericiliyində müəyyən olunmuş qaydada aidiyyatı üzrə məhkəmədə baxılır.
**16.3.**Sığorta müqaviləsindən irəli gələn bütün tələblər Azərbaycan Respublikasının mülki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə həll edilir.

## 17. Sanksiyalara dair Maddə

Şirkət bu müqavilənin əhatə etdiyi hər hansı bölmələrinə əsasən məsuliyyət üçün heç bir ödəniş etməyə və ya onun hər hansı bir genişlənməsi çərçivəsində hər hansı ödəniş həyata keçirməyə borclu deyil: bu müqaviləni və / və ya sığortaçı, onun ana şirkəti və yaxud onun əsas nəzarət qurumunu tənzimləyən hər hansı qanun və / və ya normativ aktla embarqo qoyulan və ya sığortalıya və ya bu müqavilə əsasında hər hansı başqa faydalanan şəxsə sığortalanma təmin etməyi və ya digər iqtisadi müavinət təklif etməyi sığortaçıya qadağan etməklə nəticələnən digər iqtisadi sanksiya forması tətbiq edilən hər hansı ölkə (ölkələr)də yaranan və yaxud sığortalı və ya bu müqavilənin hər hansı faydalanan şəxsi vətəndaşı və ya qurumu olduğu dövlətdən irəli gələn hər hansı iddia çərçivəsində itki üçün.

# ƏMLAKIN YANĞIN VƏ DİGƏR ƏLAVƏ RİSKLƏRDƏN SIĞORTASI

**Maddi Zərər.**

## 1. SIĞORTA TƏMİNATININ ƏHATƏ DAİRƏSİ

Bənd 1. Divarlar, darvazalar, hasarlar və Sahibin Qurğu və Cihazları daxil olmaqla BİNALAR

Bənd 2. Sığortalının mülkiyyətində olan və ya ona etibar edilmiş və o, məsuliyyət daşıdığı AVADANLIQ və Qurğular və bütün digər içindəkilər (Bənd No 1 və 3 üzrə sığortalanan və ya digər sığorta üzrə sığortalanan əmlak istisna olmaqla)

Bənd 3. Sığortalının mülkiyyətində olan və ya ona etibar edilmiş və o məsuliyyət daşıdığı ANBARDA OLAN MALLAR və ya Satışda Olan Materiallar.

Bənd 4. Bənd No. 3 üzrə Sığortalanan Əmlakın Qırıntıların Yığışdırılması

Bənd 5. Alınmalı İcarə haqqı maddəsinin şərtlərinə əsaslanaraq və Sığorta Məbləğinə mütənasib olaraq bu Müqavilə üzrə Sığortalanan Bina(lar)ın ALINMALI İCARƏ HAQQI. Sığorta Məbləği müəyyən olunmuş Aylıq İcarə Haqqıdır.

Əlavə razılaşma yoxdursa, yalnız sığortalıya və onunla birlikdə yaşayan ailə üzvlərinə və ya onunla birlikdə yaşayan şəxslərə və yaxud xidmətçilərə məxsus əşyalar qəbul olunmuş limit faizini keçməmək şərti ilə sığorta təminatının əhatə dairəsinə daxildir.

**ŞƏRTSİZ AZADOLMALAR**

Müqavilədə göstərilən faiz(lər) və ya məbləğ(lər) hər bir dəqiqləşdirilmiş zərər məbləğindən çıxılmalıdır.

Müqavilədə göstərilən faiz(lər) və ya məbləğ(lər) Sığortalı heç bir təminat almayacaq.

## 2. SIĞORTANIN RİSKLƏRİ

Bu sığorta qaydaları ilə yanğın, ildırım, partlayış və ya yanğın və partlayışla əlaqədar meydana gələn tüstü, buxar və hərarət nəticəsində sığortalanmış əmlaka dəyən maddi zərərə sığorta məbləği həddində təminat verilir.

Sığortaçı ödəniş, və ya onun mülahizəsinə görə əvəz edilmə və ya bərpa vasitəsi ilə Sığortalıya Müqavilədə göstərilən Mülkdə yerləşən Sığortalanan Əmlaka Sığorta Müddəti ərzində aşağıdakı Sığortalanan Risklər nəticəsində dəyən itki, zərər və ya ziyanın əvəzini ödəyəcək:

A. **Yanğın**, lakin aşağıdakı səbəblərdən baş verən itki, zərər və ya ziyan istisna olmaqla

- (a) yanğın nəticəsində baş verən partlayış,
- (b) zəlzələ, yeraltı yanğın və ya vulkan püskürməsi
- (c) yerin çökməsi, qabardılması və ya sürüşməsi
- (d) aşağıdakı səbəblərdən əmlaka dəyən itki, zərər və ya ziyan
  - (i) onun özü-özünə qıcqırması və ya qızması, və ya
  - (ii) onun odun tətbiqi ilə hər bir prosesdən keçirilməsi

B. **İldırım**

C. **Partlayış,** lakin aşağıdakı səbəblər nəticəsində baş verən itki, zərər və ya ziyan istisna olmaqla

- (a) Sığortalının mülkiyyətində və ya nəzarətində olan qazan, qızdırıcı və ya digər çənlər, avadanlıq və ya aparatların buxarın təzyiqinə görə partlayışı, hansılarda ki daxili təzyiq yalnız buxara görədir,
- (b) Hər hansı bir tənzimləməyə uyğun olaraq yoxlamadan keçirməli Sığortalının mülkiyyətində və ya nəzarətində olan hər hansı bir gəmi avadanlığı və onun içindəkilərdə başlanan
- (c) səs və səsdən sürətli sürət ilə hərəkət edən uçaq və digər hava nəqliyyatının hərəkəti nəticəsində yaranan dalğa təzyiqi
- (d) zəlzələ, yeraltı yanğın və ya vulkan püskürməsi
- (e) yerin çökməsi, qabardılması və ya sürüşməsi

D. Səs və səsdən sürətli sürət ilə hərəkət edən uçaq və digər hava nəqliyyatı hərəkəti nəticəsində yaranan dalğa təzyiqinə görə baş verən itki, zərər və ya ziyan istisna olmaqla, **Uçaq və digər hava nəqliyyatı və onlardan düşən hissələr**.

E. **Fırtına, Dolu, Daşqın,** aşağıdakı səbəblərdən baş verən itki, zərər və ya ziyan istisna olmaqla

(a) yalnız yeraltı suların səviyyəsinə görə
(b) şimşək, donma, yerin çökməsi, qabardılması və ya sürüşməsi
(c) örtü, jalyuzi, nişanlar, dekorativ panellər, işıqlandırıcı cihazlar, televiziya və radio antenaları, peyk antenaları və digər cihazlar və ya açıq sahədə saxlanılan əmlak daxil olmaqla, divarlara, hasarlara, darvazalara və digər açıq sahədə olan qurğular və cihazlar.
(d) hər bir damın axması (dam Sığortalanan Risklər tərəfindən zədələnmiş olmasa) və ya qapı, pəncərə, və bacaların açıq qalması və ya bu cür risklərə qarşı qorunmaması nəticəsində vurulan zərər.
(f) suyun hər hansı çəndən və ya borudan axması nəticəsində.
(g) zəlzələ.

Bu maddədə, «fırtına» saniyədə 20 metrdən aşağı olmayan sürət ilə hərəkət edən hava kütləsinə dinamik təsir mənasını daşıyır. Bu sürət itkinin, zərərin və ya ziyanın baş verməsi yerində yoxlanıla bilməsə, onda Sığortalı sığortalanan mülk ətrafında yerləşən yaxşı vəziyyətdə saxlanılan binaların və digər eyni dərəcədə davamlı obyektlərin hava hərəkəti nəticəsində zədələnməsini və Sığortalanan Bina(lar)ın və ya Sığortalanan Əmlak saxlanılan Binaların mükəmməl vəziyyətdə olmasını nəzərə almaqla, bu cür zərərin yalnız fırtına tərəfindən dəyə biləcəyini sübut etməlidir.

F. **Suyun hər hansı Çəndən və ya Borudan** axması, aşağıdakı səbəblərdən baş verən itki, zərər və ya ziyan istisna olmaqla,

(a) hər hansı avtomatik sprinkler qurğusundan axan su
(b) donma, paslanma, köhnəlmə və ya tədrici aşıntı nəticəsində
(c) mülkün istifadə olunmaması halında (suyun əsas xətdən kəsilməsi halı istisna olmaqla)
(d) hər hansı çənin və ya borunun təmiri, çıxartması və ya uzaldılması nəticəsində
(e) zəlzələ, yeraltı yanğın və ya vulkan püskürməsi nəticəsində
yerin çökməsi, qabardılması və ya sürüşməsi

G. Sığortalının və ya Mülkdə yaşayanların və ya onların müvafiq işçilərinin nəzarətində və ya mülkiyyətində olmayan **Heyvan və ya Yol Nəqliyyat Vasitəsi tərəfindən vurulan Zərbə.**

H. Güclə və zorla Mülkə giriş və Mülkdən çıxışdan istifadə olmaqla **Oğurluq və ya Oğurluq Cəhdi**, lakin

(a) sığortalı tərəfindən işə götürülmüş və ya onun xidmətində olan və ya qanuni olaraq mülkdə olan şəxs tərəfindən
(b) qanuni olaraq mülkdə olan şəxs tərəfindən
(c) Mülkün boş olması və ya istifadə edilmədiyi halda

vurulan zərər, ziyan və ya itki istisna olunur.

SIĞORTALANAN ƏMLAK dedikdə Müqavilədə göstərilən və istisna olunmayan bütün daşınmaz və şəxsi əmlak nəzərdə tutulur, və xüsusi olaraq sığortalanmasa aşağıdakılar daxildir:

(a) Qaldırıcı mexanizmlər, keçidlər, sayğaclar, hasarlar, divarlar, darvazalar, nərdivanlar və binaların damları üstündə quraşdırılan su çənləri və yanğın vaxtı binanı tərk etmək üçün nəzərdə tutulmuş xarici nərdivanlar.
(b) Xarici və yeraltı su, drenaj, kanalizasiya, qaz, elektrik və ya telefon boruları, Mülkdən kommunal şəbəkə və magistral təchizat xətlərinə birləşən cihazlar və yaxud kabellər, konveyerlər, val ötürücüləri, qayışlı ötürücülər, kəndirlər və buna oxşar avadanlıq, o cümlədən, bütün köməkçi qurğular və yaxud maksimal olaraq 150 metr, daha kiçik olanı götürülməklə ; Mülkdə və ya onlara bitişik meydançalarda və yollarda, Sığortalıya məxsus olan və ya onun məsuliyyət daşıdığı bütün əmlakı.
(c) Kiçik əlavə tikililər və içindəkilər, rahatlıq, həyətlər, avtomobil dayanacaqları, giriş yolları, yükləmə meydançaları, binalar və burada göstərilən binalara əlavə və bitişik tikililərin içindəkiləri, neft və yanacaq çənləri və köməkçi avadanlıq və onun içindəkiləri.
(d) Mülkə bitişik və onlarla bağlı istifadə olunan açıq meydançalarda və ya məkanda olan əmlak.

«SIĞORTA HADİSƏSİ» Müqavilədə müəyyən edilən Mülklərdə və ya Yerləşmələrdə Sığorta Müddəti ərzində Sığorta Riski nəticəsində baş verən və başqa cür istisna olunmayan təsadüfi və gözlənilməz fiziki itki, zərər və ya ziyan mənasını daşıyır.

MÜLK – Müqavilədə göstərildiyi kimi.

Sığortadan bütün və hər cür vasitəli itki istisna olunur.

DƏYƏRİN QİYMƏTLƏNDİRİLMƏSİ

İtkinin, zərərin və ya ziyanın baş verməsi halında Sığortaçı örtülən əmlakın dəyərini aşağıdakı kimi müəyyən edəcək. Bütün hesablamalar bu Müqavilə üzrə sığortalanan itkinin, ziyanın və ya zərərin baş verdiyi tarixdə və yerdə həyata keçiriləcək.

a. Sığortalı tərəfindən istehsal olunmayan xammal, əmtəə və digər mallar: əvəz edilmə dəyəri;

b. Anbardakı istehsal prosesində olan mallar: xammalın dəyəri və işçi qüvvəsinə çəkilən xərclər üstəgəl zədələnmiş əmlak üzrə çəkilən əlavə xərclər;

c. Sığortalı tərəfindən istehsal olunmuş hazır mallar: İtki, zərər və ya ziyan baş vermədiyi halda hazır mala tətbiq edilməli güzəşt və ödəmələr çıxmaqla adi satış qiyməti;

d. Xüsusi olaraq istisna olunmayan sənədlər: blankların dəyəri üstəgəl sənədlərin hazırlanması xərclərindən artıq olmamaq şərti ilə;

e. Digər şəxslərə məxsus olan əmlak: Sığortalının məsuliyyət daşıdığı məbləğdən bərpa dəyərinə qədər;

f. İcarəyəgötürənlərin həyata keçirdiyi abadlaşdırma və təkmilləşdirmələr: itkinin, zərərin və ya ziyanın baş verdiyi tarixdən bir il ərzində Sığortalı tərəfindən təmin olunub və ya əvəz edilibsə onda əvəz edilmə dəyəri. Əvəz edilməyibsə, onda itkinin, zərərin və ya ziyanın baş verdiyi tarixdə faktiki dəyəri;

g. Bütün digər əmlak: itkinin, zərərin və ya ziyanın baş verdiyi tarixdən bir il ərzində Sığortalı tərəfindən təmin olunub və ya əvəz edilibsə onda əvəz edilmə dəyəri. Əvəz edilməyibsə, onda itkinin, zərərin və ya ziyanın baş verdiyi tarixdə faktiki dəyəri.

## 3. ƏLAVƏ SIĞORTA HAQQI ÖDƏNİLMƏKLƏ SIĞORTA RİSKİ HESAB OLUNAN HALLAR

**3.1.** Aşağıdakı hadisələrə görə dəyən zərər əlavə razılaşmaya uyğun olaraq və əlavə sığorta haqqı ödəmək şərti ilə sığorta təminatına daxil edilə bilər:

**3.1.1.** Tətil, iğtişaş, xalq hərəkatları və bunların qarşısının alınması üçün görülən tədbirlər;
**3.1.2.** Üçüncü şəxslərin qərəzli hərəkətləri;
**3.1.3.** Terrorizm və Sabotaj;
**3.1.4.** Zəlzələ və onun nəticəsində irəli gələn Yanğın və / və ya partlayış.

**3.2.** Yanğın və partlayışın nəticəsi olmayaraq baş verən aşağıdakı hadisələrə görə dəyən zərər yalnız əlavə razılaşmaya uyğun olaraq və əlavə sığorta haqqının ödənilməsi şərti ilə sığorta təminatının əhatə dairəsinə daxil edilə bilər:

**3.2.1.** Qar ağırlığı;
**3.2.2.** Yerin çökməsi, qabardılması və sürüşməsi;
**3.2.3.** Tüstü;

**3.3.** Aşağıda göstərilən əmlak və əmlak mənafeləri, habelə itkilər sığorta məbləğlərinin sığorta şəhadətnaməsində ayrıca göstərilməsi və əlavə sığorta haqqının ödənilməsi şərti ilə sığorta təminatının əhatə dairəsinə daxil edilə bilərlər:

**3.3.1.** Sənətkarlıq və antikvarlığı baxımından qiymətli olan tablolar, rəsm əsərləri, kitablar, qravürlər, yazılar, heykəllər, bəzək əşyaları, kolleksiyalar, xalçalar və bu kimi əşyalar;
**3.3.2.** Modellər, qəliblər, plan və eskizlər, ixtira patentləri, sənədlər, mühasibatlıq və bu kimi digər sənədlər;
**3.3.3.** Nağd pul, səhmlər, istiqrazlar, qiymətli kağızlar, bütün növ qızıl və gümüş, onlardan hazırlanmış zinət əşyaları, digər qiymətli zinət ləvazimatları, qiymətli daşlar, incilər və sair qiymətli əşyalar;
**3.3.4.** Dəniz, su, avtomobil nəqliyyat vasitələri və bunların yükləri (hərəkət halı istisna olmaqla);
**3.3.5.** Əmanət və girov mallar;
**3.3.6.** Fəaliyyətdə məcburi fasilə;

## 4. SIĞORTA RİSKLƏRİNDƏN İSTİSNALAR

SIĞORTAÇI AŞAĞIDAKILAR MÜNASİBƏTDƏ MƏSULİYYƏT DAŞIMIR:

1) aşağıdakı səbəblər nəticəsində əmlaka dəyən itki, zərər və ya ziyan və ya bilavasitə və ya dolayısı ilə baş verən vasitəli itki:

a) hər hansı nüvə silahının istehsalı üçün təyin edilmiş material;

b) Nüvə yanacağının yanması nəticəsində əmələ gələn hər hansı bir nüvə tullantılarının və ya nüvə yanacağının radioaktivliyi nəticəsində ionlaşdırıcı radiasiya və bu İstisna münasibətdə yanmaya hər hansı müstəqil proses və nüvə bölünməsi daxil olunur.

c) hər hansı bir növə kompleksin ya da onun növə komponentin partlayıcı, radioaktiv, zəhərli, partlayıcı ya da başqa təhlükəli xassələri

d) müharibə, silahlı müdaxilə, xarici düşmənlərin hərəkətləri, düşmənçilik ya hərbi hərəkətlərə oxşar hərəkətlər, (müharibənin elan olduğundan və ya olmadığından asılı olmayaraq), vətəndaş müharibəsi.

e) qiyam, xalq üsyanı miqyasında ictimai həyəcan, hərbi üsyan, bunt, iğtişaş, inqilab, hərbi və ya qəsb edilmiş hakimiyyət, hərbi vəziyyət və ya mühasirə və ya hərbi vəziyyəti və ya mühasirəni elan etmək üçün səbəb olan hadisələr

f) Qiyam, tətil, lokaut və ya digər əmək iğtişaşları.

g) Hər hansı bir təşkilat ilə bağlı və ya onun adından hər hansı şəxs və ya şəxslər tərəfindən törədilən terror aktı.

Bu İstisna münasibətdə «terrorizm» sözü siyasi məqsədlə zor gücündən istifadə və ictimaiyyətin və ya onun hər bir hissəsinin hədələmə mənasını daşıyacaq.

h) güclə və zorla Mülkə giriş və Mülkdən çıxışdan istifadə olmaqla oğurluq və ya oğurluq cəhdi istisna olmaqla, hüquqa zidd olan hərəkətlər, lakin
**i)** Sığortalı tərəfindən işə götürülmüş və ya onun xidmətində olan şəxs tərəfindən,
**ii)** Qanuni olaraq Mülkdə olan şəxs tərəfindən,
**iii)** Mülk boş və ya istifadə edilmədiyi halda
vurulan zərər, ziyan və ya itki istisna olunur.

i) əmlakın yerləşdiyi sahənin və ya ölkənin gömrük orqanı, yerli, bələdiyyə və ya hakimiyyət orqanının (de yure və ya de fakto) qərarı nəticəsində əmlaka vurulan zərər, əmlakın dağıdılması, rekvizisiyası, müsadirəsi, milliləşdirilməsi, əlindən alması,

j) bilavasitə və ya dolayısı ilə bütövlükdə və ya qismən hər hansı bir sığortalanan fiziki zərər və ya ziyan nəticəsində faktiki baş verən və ya baş verməsi güman edilən və ya təhlükəsi olan tullantıların və çirkləndirici maddələrin ətraf mühitə atılması, səpələnməsi.

k) Sığortalının və ya onun hər hansı əməkdaşları, işçiləri agentləri və ya digər şəxslərin, hansılara ki, Sığortalanan əmlak etibar edilə bilər, etibarsızlığı və əyriliyi; Sığortalı tərəfindən könüllü olaraq hər hansı bir fırıldaq plan, üsul, hiylə və ya uydurma iddia vasitəsi ilə əmlakın əldə edilməsi nəticəsində baş verən itki, zərər və ya ziyan; izahedilməz itki, zərər və ya ziyan, qəribə itmə, və ya inventarizasiyanı həyata keçirəndə aşkar edilən itki və ya çatışmamazlıq;

l) məlumatın işlənilməsi vasitələrinə maqnetik və ya elektrik zərər, elektron məlumatların silinməsi və ya dəyişilməsi, və ya kompüter sistemləri, proqramları və ya digər proqram təminatının təhrif edilməsi və ya dəyişilməsi;

m) Boş və ya istifadə edilməyən bina(lar)da su kəmərlərinin donması və ya yanğın-mühafizə sisteminin qızması.

m) Binaların uçulması və çatması.

n) Çirkləndirmə

2) Aşağıdakılar münasibətdə itki, zərər və ya ziyan:

a) pul, hesablar, veksellər, valyuta, borc təsdiq edən sənədlər, öhdəliklər və ya qiymətli kağızları;

b) meteoroloji şərait (şimşəkdən başqa), tozun təsiri və oğurluq və ya oğurluq nəticəsində açıq məkanda saxlanılan daşınılan və ya şəxsi əmlaka dəyən zərər;

c) avtomobillər, yol istifadəsi üçün təyin edilən nəqliyyat vasitələri (aksessuarlar daxil olmaqla), treylerlər, dəmir yol lokomotivi / və ya dəmir yol vasitələrinin hamısı (vaqonlar, parovozlar), su və hava nəqliyyatı;

d) Bilavasitə sınaqdan keçirilmə, təmir, quraşdırma, texniki xidmət əməliyyatları nəticəsində Sığortalanan Əmlakın zədələnmiş hissəsi. Bu istisna bu Bölmə üzrə digər Sığortalanan Əmlaka dəyən zərər, ziyan və itki münasibətdə tətbiq olunmur;

e) qaramal (iri buynuzlu heyvanlar), yetişən bitkilər, meşə materialı, qazonlar, kol-bitkiləri, heyvanlar, lakin elmi tədqiqat məqsədləri ilə istifadə edilən heyvanlar istisna olunur;

f) zərgərlik malları, qiymətli qaş, qiymətli metallar, qızıl və ya gümüş külçələri, xəzlər, xəzlər ilə bəzədilmiş əşyalar;

g) ştamplar, sənədlər, əlyazmaları, iş kitabları, kompüterdə saxlanılan məlumat, şablonlar, modellər, planlar, eskizlər, çertyojlar, nadir və qədim əşyalar, qabaqcadan Sığortaçıya yazılı şəkildə xəbərdar olunmasa və Sığortaçı tərəfindən yazılı şəkildə razılıq verilməsə, nadir kitablar və incəsənət əsərləri;

h) torpaq, torpaq dəyəri, quyular, pirs, dok və gəmilərin yan alması üçün körpülər, körpülər, küçə səkiləri, patio, su kəmərləri, yollar və digər döşənmiş səthlər;

i) tikilmə, montaj və quraşdırma prosesində olan əmlak və ya strukturlar;

j) süni peyklər, kosmik gəmilər, start meydançaları, start avadanlıqları və onun əsas tərkib hissələri və onların əsas komponentləri daxil olmaqla, lakin onlarla məhdudlaşmadan, kosmik vasitələr və kosmik risklər;

k) Şərti satış, trast müqaviləsi, və hissə-hissə ödənmə planı üzrə və ya digər təxirə salınmış ödəniş planı üzrə Sığortalı tərəfindən satılmış əmlak, hansından sonra ki bu əmlak alıcılara təchiz edilir;

l) gərginlik, telekommunikasiya, ötürücü və bölüşdürücü xətlər və borular;

m) avadanlıq və qurğular, onların bünövrəsi ən zirzəmidən və ya zirzəmi olmadıqda yer səthindən aşağıda yerləşəndə;

n) yeraltı borular, bacalar və drenaj sistemləri;

n) digər sığortadan ödənilməli üstəlik məbləğ istisna olmaqla (Sığortalı onu ala biləcək və ya bilməyəcəyindən asılı olmayaraq), bu və ya digər müqavilənin digər təminat növü üzrə sığortalanan əmlak, hansında ki, o daha dəqiq olaraq təsvir olunur;

p) elektron və maqnit məlumat işlənilməsi vasitələrində yazılan məlumat daxil olmaqla, dəyərli sənəd və materiallarda saxlanılan məlumatın axtarılması, əvəz edilməsi və bərpası üzrə xərclər;

q) nüvə enerjisi riskləri və ya hər bir anda nüvə bölünməsi və radioaktiv enerjidən istifadə edilən müharibə silahı;

r) partlayıcı materiallar;

s) hər hansı bir səbəbin üzündən (şimşək daxil olmaqla) elektrik mexanizmə və ya aparata artıq yükləmə, artıq təzyiq, qısa qapanma, özü-özünə odlanma, elektrikin qığılcımlanması və ya buraxılması.

O şərtlə ki, bu İstisna yalnız zədələnmiş konkret mexanizm, aparat və ya elektrik qurğuya tətbiq olunacaq, və bu cür konkret mexanizm, aparat və elektrik qurğuların yanması nəticəsində zədələnmiş digər mexanizm, aparat və elektrik qurğulara münasibətdə bu İstisna tətbiq olunmur.

t) bu sığorta qüvvədə olmasaydı yük sığortası müqaviləsi və ya müqavilələri üzrə ödənilə bilən məbləğin üstəliyi münasibətdə istisna olmaqla, bu cür itkinin, zərərin və ya ziyanın baş verdiyi anda yük müqaviləsi və ya müqavilələri üzrə sığortalanan və ya bu Müqavilənin mövcud olmaması halda sığortalana bilən əmlak.

3) Hər növ ləngitmə, bazarın itirilməsi və vasitəli itki

(i) Müqavilə üzrə bu cür itki örtülürsə, icarə haqqının itirilməsi;

(ii) Müqavilə üzrə bu cür itki örtülürsə, Fəaliyyətdə məcburi fasilə.

**4.1.** Məhkəmə işi və ya digər məhkəmə prosesinin tənzimlənməsi zamanı Sığortaçı bu istisnaların müddəalarına görə hər bir itki, zərər və ya ziyanın orijinal sığorta müqaviləsi ilə təminat verilmədiyini israr edərsə, həmin itkinin, zərərin və ya ziyanın təminat verildiyini sübut etmək xərcləri Sığortalının öhdəliyinə düşəcək.

## ƏLAVƏ ŞƏRTLƏR

1. İCARƏYƏ GÖTÜRƏNLƏRİN ETDİYİ YAXŞILAŞDIRMALAR

Satışda və anbarda olan mallar istisna olmaqla, içindəkiləri örtən hər bir bənd üzrə sığortaya Sığortalı məsuliyyət daşıdığı İcarəyə götürənlərin İcarəyə verənin əmlakına etdiyi dəyişikliklər və yaxşılaşdırmalar da daxildir.

2. BÜTÜN DİGƏR İÇİNDƏKİLƏR

Bu cür əmlak xüsusi olaraq sığortalanmasa, «Digər içindəkilər» terminində aşağıdakıların daxil olması nəzərdə tutulur:

(a) Sənədlər, əlyazmalar, planlar, çertyojlar və İş kitabları, onların dəyəri onların dəftərxana ləvazimatı dəyəri və müvafiq məlumatların tərtib edilməsi üzrə kargüzarların əmək xərcləri kimi müəyyən edilir və Sığortalı üçün onlarda saxlanılan məlumatın nə dərəcədə dəyərli olması nəzərdə tutulmur.

(b) Modellər, nümunələr və şablonlar

(c) Kompüterin yaddaşında saxlanılan məlumatlar, lakin onların dəyəri 1.500 ABŞ dollarından (və ya yerli valyuta ilə bu məbləğin ekvivalenti) artıq olmamaq şərtilə məlumatların yığılması üzrə kargüzarların əmək xərcləri və maşın saatları üzrə xərclərin dəyəri kimi müəyyən olunur və Sığortalı üçün onlarda saxlanılan məlumatın nə dərəcədə dəyərli olması nəzərdə tutulmur.

3. MÜVƏQQƏTİ DAŞINMALAR

Aşağıdakı şərtlər nəzərdə tutulmaqla, bu Bölmə üzrə Sığortalanan Əmlak (sığorta olunan satışda olan mallar istisna olmaqla) müvəqqəti olaraq təmizlənmə, yeniləşdirilmə, təmin və oxşar məqsədlə hər hansı bir digər mülkə və mülkdən Azərbaycan Respublikası ərazisində yol, dəmir yol və ya daxili sular daşınması müddətdə sığortalanır.

Bu əlavə münasibətdə Spesifikasiyanın hər bir bəndi üzrə ödənilən məbləğ itkinin, zərərin və ya ziyanın əmlakın müvəqqəti aparılmazdan əvvəl yerləşdiyi Mülkdə və ya göstərilən Mülkdən kənarda baş verdiyi halda ödənilən məbləğdən və hər bir bənd üzrə hər bir binanın (qurğu və cihazlar istisna olmaqla) və Anbarda və Satışda olan malların dəyəri çıxılmaqla Sığorta Məbləğinin 10%-ndən artıq olmamalıdır.

Bu əlavə digər sığorta üzrə sığortalanan əmlaka və əmlakın müvəqqəti aparılmazdan əvvəl yerləşdiyi Mülkdən kənarda aşağıdakılar münasibətdə baş verən itki, zərər və ya ziyana tətbiq olunmur :-

(a) Adi yol istifadəsi üçün nəzərdə tutulmuş motonəqliyyat vasitələri və motoşassi,

(b) Avadanlıq və qurğular istisna olmaqla, Sığortalıya etibar edilmiş əmlak.

4. AÇARLAR VƏ QIFILLAR

Bu bölmə üzrə sığortaya Mülkdən açarların oğurlanması nəticəsində mexaniki qapı qıfıllarının dəyişdirilməsi və ya düzəldilməsi üzrə zəruri xərclərin ödənilməsi daxildir.

5. QORUMA VASİTƏLƏRİ

Sığortalı bu Müqavilənin qüvvəyə mindiyi andan başlayaraq onun qüvvədə olduğu bütün müddət ərzində əmlakın mühafizəsi üzrə məsuliyyət daşıyır və bütün mümkün mühafizə tədbirlərinin görülməsini təmin etməlidir. Mühafizə vasitələri və tədbirləri Sığortaçının yazılı razılığı olmadan dəyişdirilə və ya dayandırıla bilməz. Bu vasitələrdən qeyri-iş vaxtlarında və Mülkdə heç bir şəxs (otaqda, sexdə, ofisdə və s.) olmadığı müddətlərdə də tam istifadə olunmalıdır.

6. HAKİMİYYƏT ORQANLARI
**Yuxarıda göstərilən 1 və 2 bəndlərinə tətbiq olunur.**

Bu Bölmə üzrə sığortaya aşağıdakılar daxildir:

Yalnız hər bir Parlament Aktı çərçivəsində Bina və ya digər Qaydalara və ya hər hansı bir Munisipal və ya Yerli orqanın təlimatlarına əməl etmək üçün dağıdılmış və ya zədələnmiş əmlakın bərpası üçün əlavə çəkilən xərclə, o şərtlə ki:

(1) Bu əlavə üzrə məbləğə aşağıdakılar daxil deyil:

(a) Yuxarıda göstərilən Qaydalar və ya Təlimatlara riayət etmək üçün çəkilən xərclər:

(i) bu əlavə təminatın verilməsindən əvvəl baş verən zərər və ya ziyan,

(ii) bu Bölmə üzrə sığortalanmayan zərər və ya ziyan,

(iii) Sığorta olunan dağıntı və zədələnmə baş verənə qədər müvafiq qaydalar və ya təlimatın mövcud olması barədə xəbərdar olmuşdursa,

(iv) Zədələnmiş və ya dağıdılmış əmlakın bünövrələri istisna olmaqla (bu Bölmə üzrə Sığortadan bünövrələr xüsusi olaraq istisna olmasa), zədələnməyən əmlak və ya əmlakın zədələnməyən hissəsi münasibətdə,

(b) Zədələnmiş əmlakı yuxarıda göstərilən Təlimatlar və Qaydaların hər hansısının tələblərinə uyğun olması zəruriyyəti yarandıqda bu hala çatdırmaq üçün tələb oluna bilən əlavə xərclər.

(c) Yuxarıda göstərilən hər hansı bir Qayda və Təlimatlara əməl etmək məqsədilə kapitalın artımı nəticəsində əmlak münasibətdə və ya əmlakın sahibi tərəfindən ödənilməli hər hansı bir tarif, vergi, rüsum və ya digər məcburi ödəniş.

(2) Bu Əlavə üzrə Sığortaçının məsuliyyəti artmaması şərtilə, bərpa işləri zəruri sürət ilə başlamalı və yerinə yetirilməlidir və hər bir halda bu cür işlərin yerinə yetirilməsi zərərin və ya ziyanın baş verməsindən on iki ay ərzində və ya Sığortaçı yazılı şəkildə icazə verə bilən (qeyd edilmiş on iki ay ərzində) digər müddət ərzində başa çatdırmalıdır və bütövlüklə və ya qismən digər sahədə (yuxarıda göstərilən Təlimatlar və ya Qaydalar tərəfindən bu cür tələb olunarsa) yerinə yetirilə bilərlər.

(3) Bu əlavədən kənar olaraq, Sığortaçının bu Bölmə üzrə məsuliyyəti Müqavilənin şərtləri, istisnaları və müddəaların tətbiq olunmasına görə azalsa, onda bu əlavə üzrə Sığortaçının məsuliyyəti mütənasib olaraq azalacaq.

(4) Bu Bölmənin hər bir bəndi üzə ödənilən tam məbləğ Sığorta Məbləğindən artıq olmamalıdır.

(5) Müqavilənin bütün şərtləri, onlara dəyişiklik edilməsə, bu əlavəyə daxil edilmiş kimi tətbiq olunacaqlar.

7. MÜTƏXƏSSİSLƏRƏ ÖDƏNİLƏN QONORARLAR
Yuxarıda göstərilən 1 və 2 bəndlərinə tətbiq olunur.

Bu Müqavilə ilə sığortalanan hər bir zərər və ya ziyan baş versə, Sığortaçı Sığortalıya Sığortaçının razılığı ilə Sığortalı tərəfindən aşağıdakı zəruri xərcləri ödəyəcək:

Dağılmış və ya zədələnmiş əmlakın bərpası ilə əlaqədar memarların, syurveyerlərin, mühəndis-məsləhətçilərin, hüquqşünasların və s.-nin əməyi üzrə bütün zəruri və səmərəli xərclərin ödənilməsi. Təminata hər hansı bir iddianın hazırlanmasına dair çəkilən xərclər daxil deyil və ödənilən qonorarlar bu müvafiq peşəkar təşkilatlar tərəfindən müəyyən olunan qiymətlərdən artıq olmamalıdır.

8. QIRINTILARIN YIĞIŞDIRILMASI XƏRCLƏRİ

Xüsusi olaraq sığortalanmasa, bu Bölmənin hər bəndi üzrə sığorta təminatına, ehtiyat və satışda və ya icarəyə verilən materiallar istisna olmaqla, Sığortaçının razılığı olmaq şərtilə, Sığortalı tərəfdən aşağıdakılar ilə bağlı xərcləri daxil olunur:

Sığorta olunan əmlakın yanğın və ya hər hansı digər sığorta olunan təhlükə tərəfindən dağıdılmış və ya zədələnmiş hissəsi münasibətdə:

(a) qırıntıların yığışdırılması;

(b) demontaj və ya uçurdulma;

(c) dayaq ya da dirək

Bu maddə və müqavilə üzrə hər hansı bir obyekt münasibətdə Sığortaçının məsuliyyəti heç bir halda Sığorta Məbləğindən artıq olmamalıdır.

Sığortaçı dağıdılan və ya zədələnmiş əmlak olan sahədən və ya həmin sahəyə yanaşı olan sahədən olmayan qırıntıların yığışdırılması ilə bağlı çəkilən hər hansı xərcləri ödəməyəcək.

9. MÜQAVİLƏNİN DƏYƏRİ

Satılan, lakin təchiz olunmamış mallar münasibətdə, hansılar üçün sığorta hadisəsi nəticəsində bütövlüklə və ya itkinin, zərərin və ya ziyanın həcmindən asılı olaraq Satış Müqaviləsinin Satış Şərtləri ləğv olunur, Sığortaçının Məsuliyyəti həmin müqavilənin dəyəri üzrə hesablanacaq, Natamam sığortaya uyğun olmaq məqsədilə malların dəyəri, hansılara ki itki, zərər və ya ziyan baş verən halda bu maddə tətbiq olunacaq, həmin əsas üzrə müəyyən ediləcək.

10. ANBARDA OLAN MALLARIN RƏSMƏN BİLDİRİLMƏSİ

Bu müqavilə üzrə anbarda olan mallar aşağıdakı qaydada sığortalanır:

Hər təqvim ayın/rübün son günü üzrə əmlakın dəyəri otuz gün ərzində Sığortalı tərəfindən yazılı surətdə Sığortaçıya bəyan edilməlidir.

Bəyannamə verilməsə onda sığorta məbləğləri dəyər kimi Sığortalı tərəfindən bəyan edilmiş hesab olunacaq.

Hər müqavilə müddəti bitəndə, faktiki mükafat bəyan edilmiş orta məbləğə tətbiq edilən razılaşdırılmış tarif üzrə hesablanacaq, yəni bəyan olunan məbləğlərin cəmi bəyannamələrin sayına bölünəcək.

Faktiki mükafat sığorta müddəti üçün ödənilən ilkin mükafatdan artıq olsa Sığortalı həmin fərqi ödəyəcək, az olsa fərq Sığortalıya ödəniləcək.

Sığortanın hər bir itkinin, zərərin və ya ziyanın həcmi ilə azaldılmamasını nəzərə alaraq, Sığortalı itkinin, zərərin və ya ziyanın məbləği üçün baş verdiyi tarixdən Sığorta Müddətinin bitməsi tarixinə qədər müvafiq əlavə mükafat ödəyəcək.

Zəmanət verilir ki, əmlak üzrə hər bir sığorta bu sığortanın qaydalarına müvafiq olacaq.

11. FƏHLƏLƏR

Bu sığorta təminatına təsir etmədən, kiçik tikinti, yenidən tikilmə, montaj, təmir və oxşar işlərin yerinə yetirilməsi üçün fəhlələr işə götürülə oluna bilərlər.

12. MARAQ

Sığortalını kirayə, icarə və oxşar müqavilə şərtlərinə əsasən əmlak ilə təmin edən tərəflərin maraqları bu sığorta ilə nəzərə alınır, itki, ziyan və ya zərər baş verdiyi halda hər bir marağın təbiəti və həcmi bəyan edilməlidir.

13. SUBROQASİYA HÜQUQUNDAN İMTİNA EDİLMƏSİ

Bu Müqavilə üzrə iddia verildikdə, Sığortaçı Sığortalının törəmə və ya holdinq şirkətlərinə, eləcə də həmin holdinq şirkətin törəmə müəssisələrinə qarşı irəli sürə biləcəyi əks iddia hüquqlarından imtina edə bilər.

14. MÜQAVİLƏNİN QÜVVƏDƏN DÜŞMƏMƏSİ

Riskin çoxalmasına əsas olub olmamasından asılı olmayaraq yuxarıda göstərilən Mülkün hər hansı bir hissəsi Sığortalı tərəfindən istifadə olunmadığı halda hər hansı bir tədbir görüldüyü və ya görülmədiyi halda bu sığorta qüvvədən düşə bilməz, o şərtlə ki, Sığortalı baş verən hal haqqında məlumat alan kimi həmin dəyişiklik barədə Sığortaçıya xəbər verər və Sığortaçı tələb edə bilən müvafiq əlavə mükafatı ödəyəcək.

15. DƏYİŞİKLİKLƏR

Sığortalı sığorta olunan əmlaka dəyişikliklər və əlavələr edə bilər və həmin əmlakın yenidən paylanmasını yerinə yetirə bilər (və Sığortalı tərəfindən həmin mülkün istifadə edilib edilməməsindən asılı olmayaraq həmin mülkə yerləşdirilməsi daxil olmaqla) və bu sığorta hər hansı bu cür dəyişiklik və ya əlavələr nəticəsində (və onların nəticəsində doğuran fəaliyyət) ləğv oluna bilməz.

Sığortalı həmin dəyişikliklər haqqında məlumatı çatdırmağa öz öhdəsinə götürür və qüvvəyə minmə tarixindən başlayaraq pro rata mükafatı ödəməyə razılıq verir: Müqaviləyə müvafiq əlavə ediləcək.

Hər bir əlavə sığorta məlumatı nəticəsində, bu şərtlər tam olaraq bərpa oluna bilərlər.

16. MARKALI MALLAR

Sığortalanan Əmlaka dəyən zərər, ziyan və ya baş vermiş itkiyə görə iddia veriləndə, Sığortalının mülkiyyətində olan, və ya ona etibar edilmiş hər bir məhsul, markalı mallar və ya satılmış, lakin alıcıya çatdırılmamış mallar Sığortalının razılığı olmadan, satışa verilməməlidir. Bu cür xilas olunmuş mallar satışa verilməsə, onda baş vermiş itkinin, zərərin, ziyanın dəyəri Sığortalı və Sığortaçı arasında razılaşdırılacaq və itkinin, zərərin və ziyanın tənzimlənməsində nəzərə alınacaq.

17. AVTOMATİK TƏMİNAT.

Bu müqavilə üzrə sığortaya aşağıdakı təminatlar daxil olurlar.

(a) yeni alınmış və ya yeni tikilmiş binalar, avadanlıq və qurğular (Müqavilədə sığortalanmış kimi), lakin başqa cür sığortalanmasa; və

(c) binalar, avadanlıq və qurğular münasibətdə dəyişikliklər, əlavələr və təkmilləşmələr, lakin Azərbaycan Respublikası ərazisində dəyərin yüksəltməsi istisna olmaqla, o şərtlə ki:

(1) Hansının daha aşağı olmaqla, hər bir yerləşmədə bu təminat müvafiq 0 ABŞ dolları həcmində Sığorta məbləğinin % (faizini) aşmamalıdır.

(2) Sığortalı bu cür təminatın genişləndirilməsi haqqında detalları hər yarım ildə bir dəfə xəbər etməyə və Sığortalının məsuliyyətinin qüvvəyə minməsi tarixinədək xüsusi sığortanı həyata keçirmək öz öhdəsinə götürür.

(3) Hər bir əlavə sığorta haqqında məlumat daxil olmaq nəticəsində, bu şərtlər tamamilə bərpa oluna bilərlər.

18. DRENAJ SİSTEMLƏRİNİN TƏMİZLƏNMƏSİ

1 bəndi üzrə sığorta, sığorta hadisəsinin baş verdiyi hallarda drenaj sistemləri, kanalizasiyalar, axın xətləri və s. təmizlənməsi və təmiri üzrə (Sığortalının məsuliyyətidir) çəkilən zəruri və səmərəli xərclərin ödənilməsinə təminat verir

19. ALINMALI İCARƏ HAQQI

Lakin yuxarıda göstərilən binaların biri və ya onun hissəsi sığorta hadisəsi nəticəsində baş vermiş zərər və ya ziyana görə istifadə edilməsi üçün yaramaz hala düşsə icarə haqqının sığortası tətbiq olunur və ödənilən məbləğ İcarə münasibətdə Sığorta məbləğinin yüksək olmamalıdır.

20. SIĞORTA MƏBLƏĞLƏRİNİN BƏRPASI

Sığorta Məbləğləri (anbarda olan mallar istisna olmaqla) yanğından və ya digər sığortalanmış riskdən dəyən itki, zərər və ya ziyan baş verəndən sonra dərhal bərpa olunacaqlar,

O ŞƏRTLƏ Kİ,

(a) Başqa cür nəzərdə tutulmayıbsa bu memorandumun şərtləri Hər Bir İtkinin Birinci Təbəqəsi və Natamam sığortaya tətbiq olunmayacaqlar; və

(b) Sığortaçı öz seçimini Ümumi Şərtlər 9-cu Maddəyə (Müqaviləyə xitam verilməsi) əsasən yerinə yetirə bilər.

**ƏMLAKIN YANĞIN VƏ DİGƏR ƏLAVƏ RİSKLƏRDƏN SIĞORTASI İLƏ BİRLİKDƏ VERİLƏ BİLƏCƏK ƏLAVƏ ŞƏRTLƏRİ**

**FƏALİYYƏTDƏ MƏCBURİ FASİLƏ**

SIĞORTA TƏMİNATI ÜZRƏ RAZILAŞMA

Müqavilədə təsvir edildiyi kimi, Fəaliyyətinin aparıldığı müddətdə Mülkdə Sığortalı tərəfindən istifadə edilən hər hansı binaya, hər hansı başqa əmlaka və ya bunların istənilən hissəsinə (bu Sığorta Müqaviləsinin A Bölməsinə əsasən İstisna Edilməyən əmlakdırsa) bu Sığorta Müqaviləsinin Maddi Zərər Bölməsində müəyyən edilmiş Sığorta Hadisəsinin baş verməsi səbəbindən (baş verən bu cür itki, dağılma və ya zədə bundan sonra Zərər adlandırılacaqdır) Mülkdə Sığortalı tərəfindən aparılan İş Fəaliyyətində fasilə və ya maneə yarandığı halda;

Sığortaçı Müqavilədə göstərilən hər maddəyə aid olaraq bu cür fasilənin və yaxud maneənin baş verməsi nəticəsində vurulan itkinin məbləğini bu müqavilənin şərtlərinə uyğun olaraq Sığortalıya ödəyəcəkdir;
o şərtlə ki,
Sığorta Hadisəsinin baş verdiyi zaman belə Sığorta Hadisəsinə qarşı binada və ya əmlakda Sığortalının bu Sığorta Müqaviləsinin A Bölməsinə əsasən və ya başqa cür olmasından asılı olmayaraq marağını əhatə edən sığorta müdafiəsi qüvvədə olmalı və buna görə bu cür sığortaya əsasən ödəniş edilmiş (və ya hər hansı artıq (ekssedent), azadolma və ya sığortalanmayan minimumun tətbiqindən başqa ödənilən) və ya məsuliyyət qəbul edilmiş olmalıdır.

**SPESİFİKASİYA**

| **MADDƏ NO.** | **SIĞORTA MƏBLƏĞİ** |
|---|---|
| 1. Ümumi Gəlir üzrə | |
| 2. İşin Aparılması İlə Bağlı Əlavə Xərclərin Yaranması üzrə | |
| Ümumi Sığorta Məbləği | |

MAKSİMAL TƏMİNAT MÜDDƏTİ:

12 Ay.

ÜMUMİ GƏLİR

MƏSULİYYƏT LİMİTİ

Bu sənəddə bunun əksini nəzərdə tutan hər hansı müddəaya baxmayaraq, 1-ci Maddə – Ümumi Gəlir üzrə Sığortaçının məsuliyyəti Spesifikasiyada göstərilmiş məbləğdən heç bir halda artıq olmayacaqdır.
1 saylı Maddəyə əsasən nəzərdə tutulan Sığorta (a) Dövriyyənin azalması və (b) İşin Aparılması İlə Bağlı Əlavə Xərclərin Yaranması nəticəsində Ümumi Gəlirin itkisi həcmində məhdudlaşdırılır və ödənilməli təzminat məbləği aşağıdakı kimi olacaqdır:
(a) Dövriyyənin azalması üzrə: Ümumi Gəlirin Tarif Dərəcəsini Standart Dövriyyədən Təminat Müddəti üzrə Dövriyyənin Zərərə görə azalan həcmi çıxıldıqdan sonra əldə edilmiş məbləğə vurmaqla alınmış məbləğ.
(b) İşin Aparılması İlə Bağlı Əlavə Xərclərin Yaranması üzrə: yalnız Dövriyyənin azalmasının qarşısını almaq və yaxud belə azalmanı minimuma endirmək üçün zəruri və məntiqə uyğun olaraq çəkilmiş əlavə xərclər (Sığorta Olunmamış Daimi Məsrəflər üzrə qeyd-şərt nəzərə alınaraq), lakin hər halda bu cür xərclər Təminat Müddəti ərzində baş vermiş Zərər nəticəsində çəkilmiş olacaq və bu cür xərclər üzrə ödəniş Ümumi Gəlirin Tarif Dərəcəsinin beləliklə qarşısı alınmış dövriyyənin azalması məbləğinə vurmaqla alınmış məbləğdən çox olmamalıdır. Ümumi Gəlirdən ödənilməli və Zərər nəticəsində azalmış və ya çəkilməmiş xərclər Təminat Müddəti ərzində qənaət edilmiş məbləğ hesab edilir və bu məbləğ üzrə sığorta ödənişi həyata keçirilmir.
1-ci Maddə – Ümumi Gəlir üzrə sığorta məbləği Ümumi Gəlirin Tarif Dərəcəsini İllik Dövriyyənin məbləğinə (və ya maksimal Təminat Müddəti on iki aydan çox olduqda isə İllik Dövriyyənin mütənasib surətdə artırılmış məbləğinə) vurmaqla alınmış məbləğdən az olarsa, Sığortaçı tərəfindən ödənilməli məbləğ adı çəkilən məbləğlərin nisbətinə müvafiq surətdə azaldılır.

TƏRİFLƏR

Qeydlər
(a) maliyyə ilinin əvvəlinə və sonuna olan mal qalığının məbləğləri və başa çatmamış istehsalın (işlərin) dəyəri Sığortalının adi mühasibat üsulları istifadə olunaraq, amortizasiya nəzərə alınmaqla hesablanmalıdır.
(b) Bu Bölmədə nəzərdə tutulan bütün şərtlər Sığortalının Əlavə Dəyər Vergisi üzrə vergi orqanları qarşısında daşıdığı məsuliyyət dərəcəsinə qədər istisna olunacaqdır.
(c) Bu təriflərin məqsədlərinə uyğun olaraq, cari dəyərin hesaba alınmasında edilmiş hər hansı düzəlişlər nəzərə alınmır.
(d) Bu tərifdə istifadə olunan söz və ifadələr Sığortalının öz mühasibat kitablarında və sənədlərində istifadə etdiyi mənalarda başa düşülməlidir.

1. Ümumi Gəlir:
(a) Dövriyyə həcminin, maliyyə ilinin sonuna olan mal qalığının və başa çatmamış istehsalın (işlərin) dəyərinin cəmindən
(b) Sığorta Olunmayan İşin Aparılması İlə Bağlı Xərclərin məbləğinin, maliyyə ilinin əvvəlinə olan mal qalığının və başa çatmamış istehsalın (işlərin) dəyərinin cəmi çıxıldıqdan sonra əldə edilmiş məbləği nəzərdə tutur.

2. Dövriyyə sığorta təminatının qüvvədə olduğu Mülkdə həyata keçirilən İş Fəaliyyəti ilə bağlı satılan mallar və ya göstərilən xidmətlər üzrə Sığortalıya ödənilmiş və ya ödəniləcək məbləği nəzərdə tutur.
3. Təminat Müddəti Zərərin baş vermə anından başlayan və Maksimal Təminat Müddətindən çox olmayan, davam etməsi ərzində İş Fəaliyyətinin nəticələrinə Zərərin mənfi təsiri olan müddəti nəzərdə tutur.

4. Ümumi Gəlirin Tarif Dərəcəsi Zərərin baş verdiyi tarixdən əvvəl olan bir maliyyə ili ərzində Dövriyyədən əldə edilmiş Ümumi Gəlirin Tarif Dərəcəsini nəzərdə tutur.
5. İllik Dövriyyə Zərərin baş verdiyi tarixdən əvvəlki on iki ay üzrə olan Dövriyyəni nəzərdə tutur.
6. Standart Dövriyyə Zərərin baş verdiyi tarixdən əvvəl olan on iki ay ərzində Təminat Müddəti ilə üst-üstə düşən Dövriyyəni nəzərdə tutur.

Zərərin baş verib-verməməsindən asılı olmayaraq, Zərərin baş vermə anından əvvəl və ya sonra əmələ gəlmiş və İş Fəaliyyətinin tendensiyasına təsir göstərə biləcək dəyişikliklərin və ya hər hansı bir şəraitin nəzərə alınması üçün zəruri olan düzəlişlər göstərilər anlayışlara tətbiq edilməlidir. Göstərilər anlayışlara (məbləğlərə) bu üsulla düzəlişlərin edilməsi, Zərər baş verdikdən sonra müvafiq müddət ərzində, Zərərin baş verməməsi təqdirində əldə oluna biləcək nəticələrin mümkün qədər əks olunması məqsədi ilə edilir.

ALTERNATİV SAHƏ HAQQINDA QEYD-ŞƏRT

Əgər Təminat Müddəti ərzində sığorta təminatının qüvvədə olduğu Mülkdən başqa digər yerlərdə İş Fəaliyyəti ilə bağlı Sığortalı və ya onun xeyrinə digər şəxslər tərəfindən malları satıldıqda və ya xidmətlər göstərildikdə bu alternativ fəaliyyət ilə bağlı əldə edilmiş və ya əldə ediləcək qazanc Təminat Müddəti ərzində Dövriyyə hesablanarkən nəzərə alınmalıdır.

SIĞORTA OLUNMAMIŞ DAİMİ MƏSRƏFLƏR HAQQINDA QEYD-ŞƏRT

Əgər İş Fəaliyyətinin hər hansı daimi məsrəfləri bu Bölmə ilə sığorta olunmayıbsa (və Ümumi Gəlirin məbləği hesablanarkən nəzərə alınmayıbsa) İşin Aparılması ilə Bağlı Əlavə Xərclərin Yaranması təminatı üzrə ödəniləcək məbləğ hesablanarkən əlavə xərclər yalnız Ümumi Gəlirin Sığorta olunmamış daimi məsrəflər məbləğinin Ümumi gəlirlə cəminin nisbətinə bərabər proporsiyada ödəniləcək.

ƏLAVƏ XƏRC

2-ci Maddə ilə nəzərdə tutulan Sığorta əlavə xərclərin məbləğində məhdudlaşdırılır və bu Maddəyə əsasən ödənilən təzminat aşağıdakı kimi olacaq:
Zərərin baş verməsi nəticəsində İş Fəaliyyətində yarana biləcək hər hansı fasilənin və ya maneənin minimuma endirilməsi məqsədilə Təminat Müddəti ərzində Sığortalı tərəfindən çəkilmiş zəruri və ağlabatan əlavə xərclər.

TƏRİF

Təminat Müddəti Zərərin baş vermə anından başlayan və Maksimal Təminat Müddətindən çox olmayan, davam etməsi ərzində İş Fəaliyyətinin nəticələrinə Zərərin mənfi təsiri olan müddəti nəzərdə tutur.

QEYD-ŞƏRT

Sığorta Hadisəsi baş verdiyi halda, Sığortaçı Zərər baş verdiyi gündən sonra Maksimal Təminat Müddətinin birinci kvartalında əmələ gələn bu cür əlavə xərclərə aid olaraq bu sənəddə nəzərdə tutulan Sığorta Məbləğinin üçdə birindən artıq olmayan hissəsinə və yaxud Maksimal Təminat Müddətinin qalan hissəsində əlavə xərclərə aid olaraq hər ay üçün Sığorta Məbləğinin qalığına bərabər olan proporsiyadan çox olmayan hissəsinə görə məsuliyyət daşıyacaqdır.

1. MÜHASİBLƏR

Bu Sığorta Müqaviləsinin 3-cü Bəndinə - Ümumi Şərtlər – əsasən bu sənədlə bağlı qaldırılan hər hansı iddiaların araşdırılması və ya yoxlanılması üçün Sığortaçı tərəfindən tələb olunan Sığortalının mühasibat kitablarında və ya digər İş kitablarında və ya sənədlərdə olan təfsilatlar və yaxud detallar həmin zaman müntəzəm olaraq Sığortalı üçün işləyən peşəkar mühasiblər tərəfindən təqdim edilə bilər və doğruluğu rədd edilmədikdə onların verdiyi məlumatlar həmin təfsilatların və detalların həqiqiliyini sübut edəcəkdir.

2. BORC HESABINA ÖDƏNİŞLƏR

Sığortaçının rəyinə əsasən Təminat Müddəti ərzində Sığortalıya borc hesabına ödənişlər edilə bilər, lakin istənilən ödəniş heç bir halda Sığortaçının ödəniş edilən müddətdə hər bir Maddə üçün Dövriyyənin azalması üzrə məsuliyyətini üstələməməlidir.

3. YIĞILAN EHTİYATLAR

İstənilən itkinin tənzimlənməsi zamanı yığılmış hazır məhsul ehtiyatlarının Dövriyyədən müvəqqəti olaraq ayrı saxlanılması səbəbindən Zərər nəticəsində Dövriyyədə hər hansı çatışmazlığın təxirə salınması nəzərə alınmalı və ədalətli tərzdə hesaba götürülməlidir.

4. ŞÖBƏLƏR HAQQINDA QEYD-ŞƏRT

İş Fəaliyyəti müstəqil iş nəticələri təsdiq oluna bilən şöbələrdə aparıldığı halda, Ümumi Gəlir haqqında maddənin (a) və (b) Bəndlərinin şərtləri Zərərin təsirinə məruz qalan şöbələrin hər birinə ayrıca olaraq tətbiq ediləcəkdir, istisna olaraq ki, göstərilən maddə üzrə sığorta məbləği Müəssisənin hər bir şöbəsi üzrə (Zərərin təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq) Ümumi Gəlirin Tarif Dərəcəsini onların nisbi İllik Dövriyyələrinin məbləğinə (və ya Maksimal Təminat Müddəti on iki aydan çox olduqda isə İllik Dövriyyənin mütənasib surətdə artırılmış məbləğinə) vurmaqla alınmış məbləğlərin cəmindən az olarsa, Sığortaçı tərəfindən ödənilməli məbləğ adı çəkilən məbləğlərin nisbətinə müvafiq surətdə azaldılır.

4. SIĞORTA MƏBLƏĞİNİN AVTOMATİK BƏRPASI

Sığortaçı bunun əksinə olan yazılı şəkildə bildiriş verməyibsə, Sığortaçının məsuliyyəti hər hansı zərərin məbləği həcmində məhdudlandırılmayacaqdır. Sığortalı sığorta əhatəsinin bu cür avtomatik bərpası üçün müvafiq əlavə mükafatı ödəməyi öhdəsinə götürür.

5. XİLAS EDİLMİŞ ƏMLAKIN SATILMASI

Bu Bölməyə əsasən iddia qaldırılmasına əsas yaradan Zərər baş verdikdən sonra Sığortalı Təminat Müddəti ərzində xilas edilmiş əmlakın satışını həyata keçirdiyi halda Ümumi Gəlir haqqında Maddənin (a) bəndi belə iddianın məqsədlərinə uyğun olaraq aşağıda göstərildiyi kimi oxunacaq:
(a) Dövriyyənin azalması üzrə: Ümumi Gəlirin Tarif Dərəcəsini Standart Dövriyyədən Təminat Müddəti üzrə Dövriyyənin (xilas edilmiş əmlakın satış müddəti üzrə Dövriyyə çıxılmaqla) Zərərə görə azalan həcmi çıxıldıqdan sonra əldə edilmiş məbləğə vurmaqla alınmış məbləğdən xilas edilmiş əmlakın satış müddəti ərzində faktiki qazanılmış Ümumi Gəliri çıxdıqdan sonra alınan məbləğ.

## FƏALİYYƏTDƏ MƏCBURİ FASİLƏ BÖLMƏSİNƏ ƏLAVƏ ŞƏRTLƏR VƏ QEYDLƏR

SIĞORTA MƏBLƏĞİNİN AVTOMATİK BƏRPASI

Sığortaçı bunun əksinə olan yazılı şəkildə bildiriş verməyibsə, Sığortaçının məsuliyyəti hər hansı zərərin məbləği həcmində məhdudlaşdırılmayacaqdır. Sığortalı sığorta əhatəsinin bu cür avtomatik bərpası üçün müvafiq əlavə mükafatı ödəməyi öhdəsinə götürür.

Yuxarıda qeyd olunanlara baxmayaraq, Sığortaçı Ümumi Şərtlərin 10-cu Bəndinə (Ləğv) əsasən öz seçimini tətbiq edə bilər.

ALTERNATİV FƏALİYYƏT HAQQINDA QEYD-ŞƏRT

Əgər Təminat Müddəti ərzində sığorta təminatının qüvvədə olduğu Mülkdən başqa digər yerlərdə İş Fəaliyyəti ilə bağlı Sığortalı və ya onun xeyrinə digər şəxslər tərəfindən malları satıldıqda və ya xidmətlər göstərildikdə bu alternativ fəaliyyət ilə bağlı əldə edilmiş və ya əldə ediləcək qazanc Təminat Müddəti ərzində Dövriyyə hesablanarkən nəzərə alınmalıdır.

MÜHASİBLƏR HAQQINDA QEYD-ŞƏRT

Bu Sığorta Müqaviləsinin 3-cü Bəndinə - Ümumi Şərtlər – əsasən bu sənədlə bağlı qaldırılan hər hansı iddiaların araşdırılması və ya yoxlanılması üçün Sığortaçı tərəfindən tələb olunan Sığortalının mühasibat kitablarında və ya digər İş kitablarında və ya sənədlərdə olan təfsilatlar və yaxud detallar həmin zaman müntəzəm olaraq Sığortalı üçün işləyən peşəkar mühasiblər tərəfindən təqdim edilə bilər və doğruluğu rədd edilmədikdə onların verdiyi məlumatlar həmin təfsilatların və detalların həqiqiliyini sübut edəcəkdir.

BORC HESABINA ÖDƏNİŞLƏR HAQQINDA QEYD-ŞƏRT

Sığortaçının rəyinə əsasən Təminat Müddəti ərzində Sığortalıya borc hesabına ödənişlər edilə bilər, lakin istənilən ödəniş heç bir halda Sığortaçının ödəniş edilən müddətdə hər bir Maddə üzrə Dövriyyənin azalmasına görə məsuliyyətini üstələməməlidir.

YIĞILAN EHTİYATLAR HAQQINDA QEYD-ŞƏRT

İstənilən itkinin tənzimlənməsi zamanı yığılmış hazır məhsul ehtiyatlarının Dövriyyədən müvəqqəti olaraq ayrı saxlanılması səbəbindən Zərər nəticəsində Dövriyyədə hər hansı çatışmazlığın təxirə salınması nəzərə alınmalı və ədalətli tərzdə hesaba götürülməlidir.

ŞÖBƏLƏR HAQQINDA QEYD-ŞƏRT

İş Fəaliyyəti müstəqil iş nəticələri təsdiq oluna bilən şöbələrdə aparıldığı halda, Ümumi Gəlir haqqında maddənin (a) və (b) Bəndlərinin şərtləri Zərərin təsirinə məruz qalan şöbələrin hər birinə ayrıca olaraq tətbiq ediləcəkdir, istisna olaraq ki, göstərilən maddə üzrə sığorta məbləği Müəssisənin hər bir şöbəsi üzrə (Zərərin təsirinə məruz qalıb-qalmamasından asılı olmayaraq) Ümumi Gəlirin Tarif Dərəcəsini onların nisbi İllik Dövriyyələrinin məbləğinə (və ya Maksimal Təminat Müddəti on iki aydan çox olduqda isə İllik Dövriyyənin mütənasib surətdə artırılmış məbləğinə) vurmaqla alınmış məbləğlərin cəmindən az olarsa, Sığortaçı tərəfindən ödənilməli məbləğ adı çəkilən məbləğlərin nisbətinə müvafiq surətdə azaldılır.

ÖDƏNİŞİN BİR HİSSƏSİNİN QAYTARILMASI HAQQINDA QEYD-ŞƏRT

Sığorta Müqaviləsinin Qüvvədə Olduğu istənilən Müddətlə ən çox üst-üstə düşən maliyyə ili ərzində qazanılmış Ümumi Gəlir (və ya Maksimal Təminat Müddəti on iki aydan çox olduqda isə Ümumi Gəlirin mütənasib surətdə artırılmış məbləği) həmin maliyyə ili üzrə müvafiq sığorta məbləğindən az olduğu halda, əmələ gələn fərq ilə əlaqədar olaraq bu cür Sığorta Müqaviləsinin Qüvvədə Olduğu Müddət üzrə sığorta məbləği üçün ödənilmiş mükafatın 50 faizindən artıq olmayan mükafatın proporsional məbləği qaytarılacaqdır. Bu Bölməyə əsasən iddia qaldırılmasına əsas verən hər hansı Zərər baş verdiyi halda, belə qaytarılan mükafat qeyd edilmiş fərqin yalnız bu cür Zərər nəticəsində əmələ gəlməyən məbləği ilə əlaqədar ediləcəkdir.

## GENİŞLƏNMƏLƏR

**SPESİFİKASİYADA ƏTRAFLI GÖSTƏRİLDİYİ KİMİ:**

1. PLANLAŞDIRILAN ÜMUMİ GƏLİR ƏSASI

MƏSULİYYƏT LİMİTİ:

Bu sənədin “Sığorta Məbləği” bəndində göstərilmiş müddəalara əks olan hər hansı müddəasına baxmayaraq, Sığortaçının məsuliyyəti bütün hallarda Ümumi Gəlir üzrə bu sənəddə göstərilən Planlaşdırılan Ümumi Gəlirin 133%-dən və yaxud Sığortaçı tərəfindən və ya onun xeyrinə imzalanmış qeydlə əsaslandırıla bilən digər məbləğdən artıq olmamalıdır.

Sığortaçı bunun əksinə olan yazılı şəkildə bildiriş verməyibsə, Sığortaçının məsuliyyəti hər hansı zərərin məbləği həcmində məhdudlaşdırılmayacaqdır. Sığortalı sığorta əhatəsinin bu cür avtomatik bərpası üçün müvafiq əlavə mükafatı ödəməyi öhdəsinə götürür.

QEYD 1 – YENİLƏMƏ HAQQINDA QEYD-ŞƏRT

Sığortalı hər yeniləmədən qabaq növbəti sığorta ili ilə ən çox üst-üstə düşən maliyyə ili üçün Planlaşdırılan Ümumi Gəliri Sığortaçıya təqdim etməlidir.

QEYD 2 – SIĞORTA MÜKAFATININ TƏNZİMİ HAQQINDA QEYD-ŞƏRT

1 saylı Maddə üzrə ilkin və illik sığorta mükafatları şərtidirlər və Sığorta Müqaviləsinin Qüvvədə Olduğu Müddətlə ən çox üst-üstə düşən maliyyə ili üzrə Planlaşdırılan Ümumi Gəlirə əsaslanırlar.

Sığortalı hər bir Sığorta Müqaviləsinin Qüvvədə Olduğu Müddət bitdikdən sonra ən azı altı ay ərzində Sığortaçıya Sığortalının auditorları tərəfindən təsdiqlənmiş Sığorta Müqaviləsinin Qüvvədə Olduğu Müddətlə ən çox üst-üstə düşən maliyyə ili ərzində qazanılmış Ümumi Gəlir (və ya Maksimal Təminat Müddəti on iki aydan çox olduqda isə Ümumi Gəlirin mütənasib surətdə artırılmış məbləği) haqqında bəyannaməni təqdim etməlidir.

Ümumi Gəlir itkisi üzrə iddia qaldırılmasına əsas verən hər hansı Zərər baş verdiyi halda, yuxarıda göstərilən bəyannamə Sığortaçı tərəfindən mükafatın yalnız bu cür Zərər nəticəsində Ümumi Gəlirin maliyyə ili ərzində azaldığı məbləğə (və ya Maksimal Təminat Müddəti on iki aydan çox olduqda isə bu cür məbləğin mütənasib surətdə artırılmış həddinə) uyğun düzəldilməsi məqsədilə artırılacaqdır.

Bəyannamə (yuxarıda nəzərdə tutulmuş qaydada düzəlişlər edilmiş və Maksimal Təminat Müddəti on iki aydan çox olduğu hallarda mütənasib surətdə artırılmış):

(a) Sığorta Müqaviləsinin Qüvvədə Olduğu müvafiq Müddət üzrə Planlaşdırılan Ümumi Gəlirdən az olduğu halda, Sığortaçı Planlaşdırılan Ümumi Gəlir üzrə ödənilmiş mükafatın mütənasib qaydada qaytarılmasına icazə verəcəkdir, lakin qaytarılan məbləğ bu cür mükafatın 50%-dən çox olmayacaqdır;

(b) Sığorta Müqaviləsinin Qüvvədə Olduğu müvafiq Müddət üzrə Planlaşdırılan Ümumi Gəlirdən çox olduğu halda, Sığortalı Planlaşdırılan Ümumi Gəlir üzrə ödənilmiş mükafata mütənasib qaydada əlavə ödəyəcəkdir, lakin ödənilən əlavənin məbləği bu cür mükafatın 133%-dən çox olmayacaqdır.

2. DAXİL OLMAYA İMTİNA.

İtkisi, dağılması və ya zədələnməsi nəticəsində Mülkün istifadə edilməsi və ya ora daxil olma qeyri-mümkün ola və ya maneə yarana bilən Mülkün yaxınlığında yerləşən əmlak, Sığortalının Mülkünün və ya orada yerləşən əmlakının zədələnib-zədələnməməsindən asılı olmayaraq, ancaq Sığortalının Mülkünü təchiz etmək üçün elektrik enerjisi, qaz, su və ya telekommunikasiya xidmətlərini aldığı hər hansı təchizat obyektində belə xidmətlərin təchizatına mane olan itki, dağılma və ya zədələnmə halları istisna olaraq.

Bu sənədə əsasən verilən sığorta müdafiəsinin əhatəsi Sığorta Müqaviləsinə daxil edilmiş Müqavilədə ifadə olunan Sub-limitə tabedir.

3. DAXİL OLMAYA İMTİNA VƏ KOMMUNAL XİDMƏTLƏR

Aşağıda göstərilən əmlakdan irəli gələrək bu Bölmə ilə sığorta edilmiş İş Fəaliyyətində Yaranan Fasilə Mülkdə Sığortalı tərəfindən istifadə edilən əmlaka vurulmuş Zərər nəticəsində itki hesab ediləcəkdir, o şərtlə ki, Sığorta Müqaviləsinin bütün başqa müddəalarını və şərtlərini tətbiq etdikdən sonra bu Genişlənməyə əsasən hər hansı bir hadisəyə görə məsuliyyət bu Bölmə ilə nəzərdə tutulmuş sığorta məbləğlərinin cəmini üstələməyəcəkdir;

(a) Sığortalının Mülkünün və ya orada yerləşən əmlakının itirilib-itirilməməsindən, dağılıb-dağılmamasından və ya zədələnib-zədələnməməsindən asılı olmayaraq, itkisi, dağılması və ya zədələnməsi nəticəsində Mülkün istifadə edilməsi və ya ora daxil olma qeyri-mümkün ola və ya maneə yarana bilən Mülkünün yaxınlığında yerləşən əmlak,

(b) Sığortalının təchizatları və ya xidmətləri əldə etdiyi hər hansı əmlak,

   (i) elektrik stansiyası (generator stansiyası) və ya kommunal elektrik təchizatı müəssisəsinin yarımstansiyası

   (ii) kommunal təbii qaz təchizatı müəssisəsinin və yaxud bilavasitə belə müəssisə ilə əlaqəsi olan hər hansı təbii qaz istehsalçılarının quruda yerləşən sahələri

   (iii) kommunal su təchizatı müəssisəsinin su təchizatı qurğuları və ya nasos stansiyaları

   (iv) kommunal telekommunikasiya xidmətləri müəssisəsinin quruda yerləşən sahələri

Bu sənədə əsasən verilən sığorta müdafiəsinin əhatəsi Sığorta Müqaviləsinə daxil edilmiş Müqavilədə ifadə olunan Sub-limitə tabedir.

Əks təqdirdə bu Sığorta Müqaviləsinin müddəalarına, istisnalarına və şərtlərinə uyğun olaraq.

## ƏMLAKIN YANĞIN VƏ DİGƏR ƏLAVƏ RİSKLƏRDƏN SIĞORTASI İLƏ BİRLİKDƏ VERİLƏ BİLƏCƏK ƏLAVƏ TƏMİNATLAR

**PUL İLƏ BAĞLI ƏLAVƏ**

Sığorta Müqaviləsinin Maddi Zərər Bölməsi ilə nəzərdə tutulmuş sığorta əhatəsi aşağıda qeyd olunanlara vurulan fiziki itkinin, dağılmanın və ya zədənin əvəzini Sığortalıya vermək üçün genişlənir:

(a) Sığortalıya məxsus olan PUL;
(b) Adətən, içində “Pul” saxlanan SEYFLƏRDƏ və ya SEYF OTAQLARINDA oğurluq və ya oğurluq cəhdi nəticəsində,

MÜTLƏQ O ŞƏRTLƏ Kİ, Sığortalı yolda və sahədə olan “Pulun” tam hesabını aparmalıdır.

Sığortaçının məsuliyyəti baş vermiş hər ayrı hadisə üçün aşağıda göstərilən məbləğləri üstələməyəcəkdir:

(i) PUL (yəni, pul, möhürlər və başqa Dövriyyə Alətləri):

(a) Sahədə, İş Fəaliyyəti ilə əlaqədar bağlandığı və ya nəzarətsiz qoyulduğu zaman
(1) bağlanan seyfdə və yaxud seyf otağında

(2) bağlanan seyfdə və yaxud seyf otağında saxlanmadığı zaman

(b) Pulun həvalə edildiyi Sığortalının və ya istənilən başqa şəxslərin evində

(c) sahədə, iş üçün açıldığı və nəzarət olunduğu zaman

(d) yolda, o cümlədən bankın gecə seyfində olduğu zaman

O şərtlə ki:

a) Seyflərdə və ya seyf otaqlarında saxlanılan "Pul" miqdarının tam qeydiyyatı bu seyflərdən və ya seyf otaqlarından başqa ayrı bir yerdə aparılacaqdır və hər hansı itki baş verdiyi zaman Sığortaçının seyflərdə və ya seyf otaqlarında saxlanılan Pul üçün məsuliyyəti bu cür qeydlər ilə seyflərdə və ya seyf otaqlarında olduğu göstərilən "Pulun" məbləği qədər məhdudlaşdırılacaq və yuxarıda şərh olunmuş Təzminat Limitini heç bir halda keçməyəcəkdir;

b) Seyfdə və ya seyf otağında saxlanmayan bütün "Pullar" qıfılla bağlanan siyirtmədə və ya kassa aparatında saxlanmalı və təhlükəsizliyini təmin etmək bütün müvafiq ehtiyat tədbirləri görülməlidir;

c) Sığortaçı aşağıda göstərilənlərə görə məsuliyyət daşımayacaq:

i) "Pulun" qeyri-iş vaxtlarında Sığortalıya məxsus olan açardan və ya onun istənilən dublikatından istifadə etməklə hər hansı seyfdən və ya seyf otağından itkisi, əgər belə açar zor və ya təhdid yolu ilə əldə edilməmişdirsə.

ii) işgüzar sövdələşmənin nəticəsi olaraq Sığortalının səhvi və ya diqqətsizliyi üzündən və ya hər hansı dəyərdən düşmə və ya zərərə görə məruz qaldığı hər hansı dolayı itki və ya əskiklik.

Dövriyyə Alətlərinə aşağıda göstərilənlərin daxil edilməsi nəzərdə tutulur:

Nağd pul, Bank Biletləri və Banknotlar, Çeklər, Bank Çekləri, Pul Köçürmələri, Poçt Pul Köçürmələri, İstifadə edilməmiş Poçt Markaları, Mükafat İstiqrazları, Əmanət Sertifikatları, Kredit Təşkilatının Mal Çekləri, Müştəri Ödəmə Qəbzləri, Yol Çekləri, Təyyarə Biletləri və Köçürmə Veksellləri.

Bu genişlənmə ilə verilən sığorta əhatəsi bu Sığorta Müqaviləsinin başqa bir yerində ətraflı ifadə olunan Pul Daşımaları Zəmanətinə tabedir.

**PUL – SIĞORTA ƏHATƏSİNƏ ƏLAVƏ**

A. PUL DAŞIMALARI ZƏMANƏTİ

"Pul" Əhatə Genişlənməsində istinad edilən pul daşımaları (sahənin xaricində yolda), bankın gecə seyfi istisna olmaqla, yolda olan müddət ərzində və ödəməyə qədər aşağıda göstərilən sayda fiziki sağlam olan yetkinlik yaşına çatmış adamların müşayiəti ilə yerinə yetirilməlidir:

(a) 1 000 AZN-a qədər 1 fiziki sağlam yetkinlik yaşına çatmış adam

(b) 1 001 AZN-dan 3 000 AZNa qədər 2 fiziki sağlam yetkinlik yaşına çatmış adam

(c) 3 001 AZN-dan 5 000 AZNa qədər 3 fiziki sağlam yetkinlik yaşına çatmış adam

(d) 5 000 AZN-dan artıq Bəyənilmiş Mühafizə Şirkəti tərəfindən və ya Sığortaçıya müraciət edin.

**TƏTİL, İĞTİŞAŞ, XALQ HƏRƏKATI ÜZRƏ ŞƏRTLƏR**

Sığorta Müqaviləsində bunun əksini nəzərdə tutan hər hansı şərtə baxmayaraq, bununla qəbul edilmiş və razılaşdırılmışdır ki, digər hallarda Sığorta Müqaviləsinin şərtlərinə, istisnalara, müddəalarına və ya ona edilmiş indossamentə uyğun olaraq, Sığorta Müqaviləsi aşağıda qeyd olunduğu kimi genişləndiriləcəkdir:

Sığortaçı Sığortalıya Sığortalanmış Əmlaka Sığorta Müddəti ərzində aşağıdakı Sığortalanmış Risklər nəticəsində dəyən itki, zərər və ya ziyana görə öz mülahizəsinə görə təmir, əvəz edilmə və ya bərpa vasitəsilə Sığortalıya təminat verəcək: **TƏTİL, İĞTİŞAŞ, XALQ HƏRƏKATI**, aşağıdakılar istisna olaraq

**ZƏLZƏLƏ ÜZRƏ SIĞORTA TƏMİNATI**

Sığorta Müqaviləsində bunun əksini nəzərdə tutan hər hansı şərtə baxmayaraq, bununla qəbul edilmiş və razılaşdırılmışdır ki, digər hallarda Sığorta Müqaviləsinin şərtlərinə, istisnalara, müddəalarına və ya ona edilmiş indossamentə uyğun olaraq, Sığorta Müqaviləsi aşağıda qeyd olunduğu kimi genişləndiriləcəkdir:

Sığortaçı Sığortalıya Sığortalanmış Əmlaka Sığorta Müddəti ərzində aşağıdakı Sığortalanmış Risklər nəticəsində dəyən itki, zərər və ya ziyana görə öz mülahizəsinə görə təmir, əvəz edilmə və ya bərpa vasitəsilə Sığortalıya təminat verəcək: **Zəlzələ** və onun nəticəsində baş verən yanğın və/və yaxud partlayış.

Bu sənəddə istifadə olunan Zəlzələ anlayışı Yer qabığının altında baş verən hərəkətlər nəticəsində Yer səthinin titrəməsi kimi və zəlzələlərin makroseysmik təsirlərinin beynəlxalq ölçü şkalası (MCS) ilə ən azı 6 bal gücündə müəyyən edilir.

Bu sənədə əsasən verilən sığorta əhatəsi Sığorta Müqaviləsində göstərildiyi kimi azadolmaya tabedir.

***XÜSUSİ ŞƏRTLƏR***

Sığorta Zəlzələ və onun nəticəsində baş verən yanğın və/və yaxud partlayış nəticəsində baş vermiş itkiyə, dağılmaya və ya zədəyə aid olduğundan, bununla qəbul edilir və razılaşdırılır ki, digər hallarda Sığorta Müqaviləsinin şərtlərinə, istisnalara, müddəalarına və ya ona edilmiş indossamentə uyğun olaraq, Sığortaçı zəlzələ və onun nəticəsində baş verən yanğın və/və yaxud partlayış nəticəsində baş vermiş itkiyə, dağılmaya və ya məsuliyyətə görə Sığortalıya təzminatı yalnız Sığortalı tikinti sahəsində qüvvədə olan rəsmi tikinti normalarına və qaydalarına uyğun olaraq layihədə zəlzələ riskinin nəzərə alındığını, materialların və iş ustalığının müvafiq olan keyfiyyətini və hesablamaların əsaslandırıldığı ölçülərə riayət olunduğunu sübut edə bildiyi təqdirdə ödəyəcəkdir.

Sığortaçı istənilən iddiada, məhkəmə çəkişməsində və ya başqa işdə burada qeyd edilmiş Şərtin müddəalarına görə hər hansı itkinin, dağılmanın və ya zədənin bu Sığorta Müqaviləsi ilə əhatə edilmədiyini təsdiq etdiyi halda, belə itkinin, dağılmanın və ya zədənin sığorta ilə əhatə olunduğunu sübut etməyin yükü Sığortalının üzərinə düşür.

**QAR VƏ BUZ AĞIRLIĞI ÜÇÜN TƏMİNAT**

Müqavilə və ya onun əlavələrində göstərilənlərin əksinə baxmayaraq, bütün digər hallarda bu Müqavilənin şərtləri, istisnaları, müddəaları və əlavələrinə uyğun olaraq bu Müqavilə ilə nəzərdə tutulan təminatın aşağıdakı kimi genişləndirilməsi razılaşdırılır və nəzərdə tutulur:

Sığortaçı Sığortalıya Sığortalanmış Əmlaka Sığorta Müddəti ərzində aşağıdakı Sığortalanmış Risklər nəticəsində dəyən itki, zərər və ya ziyana görə öz mülahizəsinə görə təmir, əvəz edilmə və ya bərpa vasitəsilə Sığortalıya təminat verəcək: aşağıdakılar istisna olmaqla **qar və buz ağırlığı**

a) Sığorta olunan binaya zərər vurulması halı istisna olmaqla, divarlar, darvazalar və hasarlara dəyən zərər, ziyan və ya itki
b) Bu örtük qüvvəyə minmə tarixindən əvvəl yaranan hər bir itki, zərər və ya ziyan

## YERİN ÇÖKMƏSİ, QABARDILMASI VƏ SÜRÜŞMƏSİ ÜÇÜN TƏMİNAT

Müqavilə və ya onun əlavələrində göstərilənlərin əksinə baxmayaraq, bütün digər hallarda bu Müqavilənin şərtləri, istisnaları, müddəaları və əlavələrinə uyğun olaraq bu Müqavilə ilə nəzərdə tutulan təminatın aşağıdakı kimi genişləndirilməsi razılaşdırılır və nəzərdə tutulur:

Sığortaçı Sığortalıya Sığortalanmış Əmlaka Sığorta Müddəti ərzində aşağıdakı Sığortalanmış Risklər nəticəsində dəyən itki, zərər və ya ziyana görə öz mülahizəsinə görə təmir, əvəz edilmə və ya bərpa vasitəsilə Sığortalıya təminat verəcək: aşağıdakılar istisna olmaqla, əmlakın durduğu sahənin hər bir hissəsində **Yerin Çökməsi** və ya **Qabardılması** və ya **Yerin Sürüşməsi,**

a) Sığorta olunan binaya zərər vurulması halı istisna olmaqla, həyət, avtomobil dayanacağı, yollar, səkilər, divarlar, darvazalar və hasarlara dəyən zərər, ziyan və ya itki
b) Aşağıdakı səbəblər nəticəsində baş verən itki, zərər və ya ziyan
   i) yeni strukturların normal çökməsi və ya təbəqələşməsi
   ii) tökülərək düzəldilmiş torpağın çökməsi və ya hərəkəti
   iii) sahil və ya çay eroziyası
   iv) binanın qüsurlu planı və ya keyfiyyəti və ya zay materiallardan istifadə
   v) yanğın, yeraltı yanğın, yanğın nəticəsində partlayış, zəlzələ və ya suyun hər hansı bir çəndən və ya borudan axması
c) bu təminatın qüvvəyə minməsindən əvvəl baş verən itki, zərər və ya ziyan
d) həmin mülkdə aşağıdakı səbəblər nəticəsində baş verən itki, zərər və ya ziyan
   i) hər bir əmlakın uçurdulması, tikilməsi, struktur dəyişikliklərin edilməsi və ya
   ii) torpaq və ya qazma işləri

XÜSUSİ ŞƏRTLƏR

Bu sığortanın Yerin çökməsi, Qabardılması və Sürüşməsi nəticəsində baş verən itki, zərər və ya ziyan münasibətdə olduğunu nəzərə almaqla:
(a) Sığortalı hər bir yanaşı sahədə uçurdulma, torpaq, qazma və ya tikinti işlərinin aparılmasından xəbər alan kimi dərhal Sığortaçıya məlumat verməlidir;
(b) Sığortaçı onda bu təminatın şərt, istisna və ya müddəalarına dəyişiklik etmək və ya ona xitam vermək hüququna malik olacaq.

Bu sənədə əsasən verilən sığorta əhatəsi Sığorta Müqaviləsində göstərildiyi kimi azadolmaya tabedir.

## ÜÇÜNCÜ TƏRƏFLƏRİN PİS NİYYƏTLİ HƏRƏKƏTLƏR NƏTİCƏSİNDƏ DƏYƏN ZƏRƏR ÜÇÜN TƏMİNAT

Müqavilə və ya onun əlavələrində göstərilənlərin əksinə baxmayaraq, bütün digər hallarda bu Müqavilənin şərtləri, istisnaları, müddəaları və əlavələrinə uyğun olaraq bu Müqavilə ilə nəzərdə tutulan təminat üçüncü tərəflərin pis niyyətli hərəkətlər nəticəsində əmlaka dəyən hər bir itki, dağıntı və ya zərər sığortalaması ilə genişləndirilir, aşağıdakılar istisna olmaqla:

a) Hər bir itki, dağıntı və ya zərər:
   i) hökumət və dövlət orqanının qərarı nəticəsində əmlakın dağıdılması, rekvizisiyası, əlindən alması nəticəsində əmələ gələn
   ii) işin dayandırılması nəticəsində əmlaka əmələ gələn
   iii) pis niyyətli adamların (heç bir siyasi təşkilatı ilə əlaqəsi olmayan və ya onun adından fəaliyyət göstərməyən) hərəkətlər nəticəsində (yanğın və partlayış başqa olmaqla) hər hansı bir boş və ya istifadə olunmayan binaya
b) Aşağıdakılar istisna olmaqla, hər növ ləngitmə, bazarın itirilməsi və vasitəli itki
   (i) Müqavilə üzrə bu cür itki ötürülürsə, icarə haqqının itirilməsi
   (ii) Bu Müqavilənin B Bölməsi üzrə təminat (varsa), lakin kompüter sistemlərində informasiyanın və ya digər yazı və proqram təminatının bilmədən təhrif edilməsi və ya korlaması istisna olunmaqla
c) Qiyam, tətil, lokaut və ya digər əmək iğtişaşları, xalq üsyanı

d) Hər hansı bir qanunsuz təşkilat əlaqəsi olan və ya onun adından fəaliyyət göstərən pis niyyətli adam və adamlar tərəfindən hər hansı bir qanunsuz və pis niyyətli hərəkət

Qeyd:
"Qanunsuz təşkilat" – hər hansı bir terrorizmlə məşğul olan təşkilat deməkdir və hər hansı bir münasib zamanda əhatə olunan ərazində qanundan kənar elan olunmuş təşkilatı ehtiva edir

"Terrorizm" - siyasi səbəblərdən zorakılığı istifadə edilməsi və hər hansı bir zorakılığı və ya xalqa ya da xalqın hər hansı bir hissəsi qorxutmağı daxil edir

**MÜHARİBƏ VƏ TERRORİZMİN İSTİSNASI**

Bu sığortanın və ya əlavələrin şərtlərində göstərilənlərin əksinə baxmayaq, bu sığorta ilə həmin anda baş verən hər bir digər səbəbdən və ya itkinin digər nəticəsindən asılı olmayaraq aşağıdakıların bilavasitə və ya dolayısı ilə nəticəsində və münasibətdə baş vermiş itki, zərər, ziyan, xərc istisna olunurlar.

(1) müharibə, hücum, xarici düşmənlərin hərəkətləri, hərbi və ya hərbi hərəkətlərə oxşar hərəkətlər (müharibənin elan olduğundan və ya olmadığından asılı olmayaraq), vətəndaş müharibəsi, qiyam, inqilab, bunt, qiyamın ölçüləri ilə bərabər olan ictimai həyəcan, hərbi və ya qəsb edilmiş hakimiyyət; və ya

(2) hər bir terrorizm aktı.

Bu əlavədə «terrorizm» sözü ictimaiyyətin və ya ictimaiyyətin hər bir hissəsini, və ya hakimiyyətin qorxuzması daxil olmaqla siyasi, dini, ideoloji və oxşar məqsədlərlə müstəqil olaraq və ya hər hansı bir təşkilatın və ya hökumətin adından və ya onlarla əlaqədar olaraq hər hansı bir şəxsin və ya şəxslər qrupu tərəfindən güc, zorakılıq və ya təhdiddən istifadə edilməsi daxil olmaqla, lakin onlarla məhdudlaşmayan vasitələrin istifadəsi mənasını daşıyacaq.

Bu əlavə ilə yuxarıda göstərilən (1) və ya (2) bəndləri ilə əlaqədar nəzarət, qarşısıalma və aradan qaldırılma tədbirlərin nəticəsində və ya onlarla əlaqədar olaraq bilavasitə və ya dolayısı ilə baş verən hər hansı bir itki, zərər, ziyan və ya xərc istisna edilir.

Sığortaçı bu istisnaya uyğun olaraq ilə hər hansı bir itki, zərər, ziyan və ya xərc bu sığorta ilə örtülmədiyini israr edərsə, bunun əksini sübut etmək xərcləri Sığortaçının öhdəliyinə düşəcək.
Bu əlavənin hər hansı bir hissəsi və ya qismi qüvvədən düşmüş və ya etibarsız sayılsa, qalan hissə tam qüvvədə qalacaq.

**ELEKTRON MƏLUMATI DAŞIYICISI HAQQINDA MÜQAVİLƏYƏ ƏLAVƏ**

**1. Elektron məlumatının sığorta olunması ilə bağlı istisnalar**

Sığorta müqaviləsində və ya ona hər hansı əlavədə bu müddəaya zidd olan hər hansı müddəanın olmasına baxmayaraq, anlaşılır və razılaşdırılır ki: -

a) Sığorta müqaviləsi çərçivəsində ELEKTRON MƏLUMATIN hər hansı səbəbdən (o cümlədən – lakin bununla məhdudlaşmadan – KOMPÜTER VİRUSU olması səbəbindən) itkisi, ziyana uğraması, pozulması, təhrif edilməsi, korlanması və ya dəyişdirilməsi, yaxud istifadəsinin itkisi, funksiyasının zəifləməsi və ya qeyd olunanlardan irəli gələn məsrəfləri və xərcləri (bu itki ilə birgə və ya bu itkinin davamı kimi baş vermiş hər hansı bir səbəbin və ya hadisənin baş verib-verməməsindən asılı olmayaraq) əhatə edilmir.

ELEKTRON MƏLUMATI elektron və ya elektromexaniki məlumat işlənməsi avadanlığı və elektron yolla nəzarət edilən avadanlıq tərəfindən istifadə olunmaq üçün konvertasiya edilmiş faktlar, sxemlər və məlumatdan ibarətdir və bu məlumatın işlənməsi və manipulyasiyası, yaxud qeyd olunan avadanlığın idarə edilməsi və ya manipulyasiyası üçün istifadə edilən proqramları və digər instruksiyaları da özünə daxil edir.

KOMPÜTER VİRUSU dağıdıcı, ziyanverici və ya digər hər hansı cür qadağan edilmiş instruksiyalar və kodlar dəstidir (o cümlədən, kompüter sistemi və ya hər hansı şəbəkə vasitəsilə özünü göstərən və ziyan verilməsi məqsədi ilə yeridilən qadağan edilmiş instruksiyalar və ya kodlar dəsti). KOMPÜTER VİRUSU həmçinin «Troyan Horses», «Worms» və «Time or Logic Bombs» viruslarını da özünə daxil edir, lakin bunlarla məhdudlaşmır.

b) Buna baxmayaraq, aşağıda sadalanan qəzalardan hər hansı biri yuxarıdakı a) bəndində göstərilən səbəblərin hər hansı birinin nəticəsi olarsa, bu sığorta müqaviləsi, onun bütün şərtlərinə və istisnalarına əməl edilməsi şərti ilə, sığorta Müqaviləsi dövründə aşağıda sadalanmış qəzaların hər hansı birinin nəticəsində yaranan fiziki zərəri örtəcəkdir.

Sadalanmış qəzalar

Yanğın

Partlayış

2. **ELEKTRON MƏLUMAT daşıyıcılarının dəyərinin müəyyən edilməsi**

Sığorta müqaviləsində və ya ona hər hansı əlavədə bu müddəaya zidd olan hər hansı müddəanın olmasına baxmayaraq, anlaşılır və razılaşdırılır ki: -

Sığorta müqaviləsi çərçivəsində sığortalanan elektron məlumat daşıyıcıları bu sığorta Müqaviləsi ilə örtülən fiziki itki və ya zərərə məruz qalarsa, dəyərin müəyyən edilməsi üçün boş elektron daşıyıcısının dəyəri üstəgəl ELEKTRON MƏLUMATIN ehtiyat mənbədən və ya daha əvvəlki nəslə məxsus mənbələrin əslindən köçürülməsinin dəyəri əsas götürüləcəkdir. Bu dəyər tədqiqat və mühəndislik, o cümlədən bu cür ELEKTRON MƏLUMATIN yenidən yaradılması, toplanması və ya yığılması xərclərini daxil etmir. Əgər elektron məlumat daşıyıcısı təmir olunmursa, əvəz olunmursa və ya bərpa olunmursa, dəyər boş elektron daşıyıcısının dəyəri əsasında müəyyən edilir. Buna baxmayaq, bu sığorta Müqaviləsi bu cür ELEKTRON MƏLUMAT daşıyıcısının sığorta olunan və ya hər hansı başqa tərəf üçün dəyərinə aid olan hər hansı məbləği örtmür (bu cür elektron məlumat daşıyıcısı yenidən yaradıla, toplana və ya yığıla bilməsə belə).

**Kif və Göbələklərə dair əlavə izahat**

A. Sığorta Müqaviləsi onun qüvvədə olduğu müddət ərzində sığortalanmış əmlaka kif, göbələklər və ya sporlar nəticəsində aşağıda Sadalanan Risklərdən yalnız birbaşa dəyən maddi itki və ya ziyanı sığortalayır:

Yanğın; Zəlzələ; Partlayış; İldırım; Tufan; Dolu; Daşqın; Su nəticəsində vurulan ziyan; Nəqliyyat Vasitəsinin birbaşa təsiri; Təyyarə və ya Gəmi; İğtişaş və ya vətəndaş itaətsizliyi; Vandalizm və ya əmlaka qəsdən ziyan vurulması; və ya yanğından müdafiə avadanlığının təsadüfi işləməsi.

Təminat Sığorta Müqaviləsinin bütün məhdudiyyətlər və, əlavə olaraq, hər bir aşağıda göstərilən məhdudiyyətlər ilə məhdudlaşır:

1. Nəzərdə tutulan əmlak Sadalanan Risklərə qarşı maddi itki və ziyandan sığortalanmalıdır.

2. Sığortalı Sığortaçıya kif, göbələklər və ya sporlar nəticəsində dəymiş maddi ziyan və onun məbləği barədə mümkün qədər tez, lakin Sadalanan Riskin baş verməsi ilə həmin sığortalanmış əmlaka sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində ilk dəfə hər hansı maddi itki və ya ziyan dəydikdən sonra 6 (altı) aydan çox olmayan müddətində hesabat verməlidir. Sığorta Müqaviləsi kif, göbələklər və ya sporlar nəticəsində dəymiş ziyan barədə Sığortaçıya 6 (altı) aylıq müddətin keçməsindən sonra məlumat verildikdə, heç bir maddi itki və ya ziyanı sığortalamır.

B. Maddi Zərər Bölməsində göstərilənlərdən başqa, Sığorta Müqaviləsi birbaşa və ya dolayısı ilə kif, göbələklər və ya sporların hər hansı növü, tipi və ya sinfi nəticəsində dəymiş itki, ziyan, iddia, xərc və ya digər məbləğləri sığortalamır.

# BÜTÜN RİSKLƏR SIĞORTASI

## ÜMUMİ ŞƏRTLƏR

1. ƏSASLANDIRILMIŞ EHTİYAT TƏDBİRLƏRİ

Sığortalı

(i) öz sahəsini yaxşı vəziyyətdə saxlayacaqdır;

(ii) hər hansı itki, məhv olma və yaxud zədələnmə ehtimalını aradan qaldırmaq və/və yaxud minimallaşdırmaq üçün bütün əsaslandırılmış müvafiq ehtiyat tədbirlərini yerinə yetirəcəkdir.

2. TƏHRİF ETMƏ

Sığorta Müqaviləsi hər hansı əhəmiyyət kəsb edən faktın və məlumatların təhrif edilmiş şəkildə təqdim olunduğu, düzgün təsvir olunmadığı və yaxud açıqlanmadığı halda ləğv olunacaqdır.

3. BİNANIN BOŞ QALMASI

Hər hansı bina boşaldığı və yaxud boşaldılmış bina və ya onun bir hissəsi dəyişiklikdən sonra otuz (30) gün ərzində yenidən tutulduğu zaman Sığortaçıya bildiriş göndəriləcəkdir.

## MADDİ ZƏRƏR

SIĞORTA EDİLMİŞ ƏMLAK (və yaxud onun hər hansı hissəsi) Sığorta Hadisəsinin baş verməsi nəticəsində itirildiyi, məhv olduğu və yaxud zədələndiyi halda,

SIĞORTAÇI ödəməklə və yaxud özünün seçimi ilə bərpa və ya təmir etməklə bu cür itki, məhv olma və yaxud zədələnmə nəticəsində vurulmuş zərərin əvəzini Sığortalıya verəcəkdir.

## İSTİSNA EDİLMİŞ ƏMLAK

SIĞORTAÇI aşağıda qeyd olunan əşyaların itkisinə, məhv olmasına və yaxud zədələnməsinə görə məsuliyyət daşımayacaqdır:

(a) pul, hesablar, veksellər, valyuta, aktlar, borc sənədləri, girov kağızları və yaxud qiymətli kağızlar;

(b) oğurluqdan, tozdan və yaxud hər hansı hava şəraitindən qorunmayan (ildırım istisna olaraq) açıq yerdə saxlanan daşınar və/və yaxud şəxsi əmlak;

(c) avtomobillər, yollarda istifadə etmək üçün lisenziya verilmiş nəqliyyat vasitələri (yardımçı avadanlıq və ləvazimatlar daxil olmaqla), furqonlar, qoşqular, dəmir yolu lokomotivləri və/və yaxud dəmir yol vasitələrinin hamısı (vaqonlar, parovozlar və s.), gəmilər və yaxud təyyarələr;

(d) sığorta edilmiş əmlakın faktiki olaraq işlənən və bilavasitə bunun nəticəsində və yaxud hər hansı sınaq, təmir, nizamlama, istismar və yaxud texniki xidmət işlərinin aparılması ilə əlaqədar olaraq istifadə olunan hissəsi. Bu istisna bu Bölmə ilə sığorta edilmiş digər əmlakın itkisi və yaxud zədələnməsi halına şamil edilməyəcəkdir;

(e) mal-qara, yetişdirilən məhsul, bar, kəsilməmiş meşə, çəmənlik, yaşıllıq, kollar, heyvanlar;

(f) zərgərlik məmulatları, qiymətli daşlar, qiymətli metallar, qızıl və yaxud gümüş külçəsi, xəz, xəzlə işlənmiş əşyalar;

(g) nadir əşyalar, antikvar, nadir kitablar və yaxud incəsənət əsərləri, əgər Sığortaçıya qabaqcadan yazılı şəkildə məlumat verilməyibsə və Sığortaçı bu cür əmlakı yazılı şəkildə qəbul etməyibsə;

(h) torpaq, torpaq dəyərləri, qazıma yerləri, pirslər, körpülər (gəminin yan alması üçün), doklar və bəndlər, körpülər, cığırlar, terraslar, drenaj boruları, yollar və yaxud digər döşənmiş səthlər;

(i) tikinti, quraşdırma və yaxud montaj işləri aparılan əmlak və yaxud tikililər;

(j) elektrik cihazının və yaxud elektrik qurğusunun bilavasitə içində baş verən elektrik axması və yaxud həddən artıq təzyiq nəticəsində və yaxud həmin hissənin özündə baş verən qısaqapanma və yaxud həddən artıq yüklənmə səbəbindən zədələnən hər hansı hissəsi, bu cür səbəblərdən əmələ gələn yanğın nəticəsində məhv olma və yaxud zədələnmə halları istisna olmaqla;

(k) kosmos və kosmosla bağlı olan risklər, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, peyklər, kosmik gəmi, start meydançaları, daşıyıcı raketlər və bu avadanlıqların əsas komponentləri;

(l) Sığortalı tərəfindən şərti satış, trast idarəetmə sazişi, möhlətli ödəniş planı və yaxud digər möhlətli ödəniş sistemlərinin şərtləri altında satılan əmlak, belə əmlak müştərilərə təqdim edildikdən sonra;

(m) ötürücü və yaxud paylayıcı elektrik və yaxud telekommunikasiya xətləri və boruları;

(n) maşınlar və yaxud qazanlar, əgər onların əsasları ən aşağıda yerləşən zirzəmi döşəməsindən və yaxud əgər heç bir zirzəmi yoxdursa, yerin səthindən aşağıda yerləşirsə;

(o) yeraltı borular, bacalar və yaxud drenaj kanalları;

(p) hava və yaxud su nəqliyyatı ilə daşındığı zaman şəxsi əmlak; dəniz mühitinin bütün təsirləri, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, neft/qaz buruqları və istehsalat avadanlığı;

(q) bu və ya istənilən başqa sığorta müqaviləsinin başqa formada sığorta müdafiəsi ilə əhatə olunmuş və xüsusi olaraq daha ətraflı şəkildə təsvir edilən əmlak, həmin başqa sığortadan artıq alınan məbləğ (onu ala bilib-bilməyəcəyinizdən asılı olmayaraq) istisna olmaqla;

(r) qiymətli sənədlər və materiallar haqqında, o cümlədən, elektron və ya maqnit daşıyıcılarda mövcud olan məlumatların tədqiq edilməsinə, əvəz edilməsinə və yaxud bərpa edilməsinə çəkilən xərclər;

(s) nüvə enerjisinin törətdiyi risklər və atom nüvəsinin parçalanması və yaxud radioaktiv qüvvənin istifadə olunduğu hər hansı müharibə silahı.

## İSTİSNALAR

SIĞORTA MÜQAVİLƏSİ aşağıda göstərilənləri əhatə etmir:

(1) hər hansı təbiətli hüquqi məsuliyyət; və yaxud

(2) hər hansı təbiətli bədən xəsarəti; və yaxud

(3) aşağıda qeyd olunan səbəblər üzündən və yaxud onlarla əlaqədar olaraq hər hansı əmlakın itkisi, məhv olması və yaxud zədələnməsi və yaxud birbaşa olaraq və ya dolayısı ilə bunların nəticəsində, vasitəsilə və yaxud bunlardan irəli gələn hər hansı dolayı itki və zərər:

   (a) hər hansı nüvə yanacağının və yaxud hər hansı nüvə yanacağının yanma məhsulu olan nüvə tullantılarının əmələ gətirdiyi ionlaşdırıcı şüalanma və yaxud radioaktiv çirklənmə;

   (b) hər hansı partlayıcı nüvə qurğusunun və yaxud onların nüvə komponentlərinin radioaktiv, toksik, partlayıcı və yaxud digər təhlükəli xüsusiyyətləri;

   (c) idarə olunan və yaxud idarə olunmayan olmasından asılı olmayaraq bütün nüvə reaksiyaları, nüvə radiasiyaları və yaxud radioaktiv çirklənmələr və bu cür itkinin və ya zərərin bilavasitə və ya dolayısı ilə, yaxında və ya uzaqda, tamamilə və ya qismən olaraq sığorta edilmiş təhlükə(lər) nəticəsində, vasitəsilə baş verməsindən və yaxud ağırlaşdırılmasından asılı olmayaraq;

   (d) bilavasitə və ya dolayısı ilə aşağıda qeyd olunan səbəblər üzündən, vasitəsilə və yaxud onların nəticəsi olaraq hər hansı əmlakın itkisi və yaxud zədələnməsi: sülh və yaxud müharibə şəraitində aparılan düşmən və ya hərb əməliyyatları, o cümlədən, aşağıda qeyd olunanlar tərəfindən faktiki həyata keçirilən, təhlükə doğuran və yaxud gözlənilən hücuma qarşı aparılan əngəlləyici, döyüş və müdafiə əməliyyatları:

(i) hər hansı dövlət və yaxud suveren hakimiyyət (de-yure və yaxud de-fakto) və yaxud silahlı qüvvələrə, hərbi dəniz qüvvələrinə və yaxud hərbi hava qüvvələrinə malik olan və ya istifadə edən hər hansı hakimiyyət; və yaxud

(ii) silahlı qüvvələr, hərbi dəniz qüvvələri və yaxud hərbi hava qüvvələri; və yaxud

(iii) hər hansı bu cür dövlətin, gücün, hakimiyyətin və yaxud qüvvələrin agenti;

(e) atom nüvəsinin parçalanması və yaxud radioaktiv qüvvə;

(f) bilavasitə və ya dolayısı ilə aşağıda qeyd olunan səbəblər üzündən, vasitəsilə və yaxud onların nəticəsi olaraq hər hansı əmlakın itkisi və yaxud zədələnməsi: üsyan, qiyam, inqilab, vətəndaş müharibəsi, qəsb edilmiş hakimiyyət, terror aktları, təxribat və yaxud bu cür halların baş verməsinə qarşı dövlətin hakimiyyət orqanı tərəfindən görülən maneə, mübarizə və yaxud müdafiə tədbiri;

(g) aşağıda qeyd olunan səbəblər üzündən və yaxud onlarla əlaqədar olaraq hər hansı əmlakın itkisi, məhv olması və yaxud zədələnməsi və bunun nəticəsində və yaxud bundan irəli gələn hər hansı zərər və yaxud xərc və yaxud birbaşa olaraq və ya dolayısı ilə bunların nəticəsində, vasitəsilə və yaxud bunlardan irəli gələn hər hansı dolayı itki və zərər:

Əmlakın yerləşdiyi ölkənin və ya ərazinin de-yure və ya de-fakto Hökuməti və yaxud hər hansı dövlət hakimiyyət orqanı, bələdiyyə və ya yerli hakimiyyət orqanı tərəfindən çıxarılmış Əmrə görə əmlakın müsadirə, ekspropriasiya edilməsi, milliləşdirilməsi, zorla mənimsənilməsi, rekvizisiya edilməsi, məhv edilməsi və ya zədələnməsi; karantin və ya gömrük qaydalarına əsasən müsadirə edilməsi və yaxud məhv edilməsi;

(h) səs və ya səs sürətindən yüksək sürətlə hərəkət edən təyyarələr və yaxud digər hava aparatlarının yaratdığı təzyiq dalğaları;

(h) Sığortalının və ya onun hər hansı məmurunun, işçisinin, agentinin və yaxud bu Sığorta Müqaviləsinə əsasən Sığorta Edilmiş Əmlakın həvalə oluna biləcəyi digər şəxsin etibarsızlığı və ya vicdansızlığı; hər hansı aldadıcı sxemə, hiyləyə, plana və ya fırıldağa inanaraq Sığortalının hər hansı əmlakına mülkiyyət hüququndan könüllü surətdə ayrılması nəticəsində baş vermiş itki və yaxud ziyan; inventarizasiya keçirilən zaman aşkar edilmiş hər hansı izah edilməmiş itki, müəmmalı yoxa çıxma, itki və yaxud əskik gəlmə;

(j) (i) Sığortalının malik olduğu, işlətdiyi və ya idarə etdiyi buxar qazanlarının, buxar turbinlərinin, buxar mühərriklərinin, qaz turbinlərinin, təzyiq qablarının, bu avadanlıqlara birləşdirilmiş və onların bir hissəsini təşkil edən boruların və yaxud cihazların partlaması, qırılması, dağılması, çatlaması, yanması və yaxud şişməsi, qaz turbinlərindən başqa odla isidilən hər hansı qabın odluğunda (və yaxud yanma kamerasında) və yaxud yanma qazlarının çıxdığı bacalarda və ya keçidlərdə yığılan qazın və ya yanmamış yanacağın partlayışı istisna olmaqla;

(ii) elektrik qövsünün əmələ gəlməsi, elektrik cihazlarının, qurğularının, armaturların, elektrik xətlərinin və yaxud digər elektrik qurğularının zədələnməsi və ya pozulması;

(iii) Sığortalının malik olduğu, işlətdiyi və ya idarə etdiyi əmlakda mərkəzdənqaçan qüvvə səbəbindən yaranan mexaniki sınma; nasazlıq; qırılma və ya dağılma; əgər itki istisna edilməmiş təhlükə nəticəsində baş vermişdirsə və ondan sonra Sığortaçı yalnız belə təhlükə nəticəsində baş vermiş itkiyə görə məsuliyyət daşıyacaqdır;

(k) binaların dağılması və yaxud çatlaması;

(l) ləngitmə, bazarın itkisi, tədrici pisləşmə, ayrılmaz qüsur, gizli qüsur, istənilən növ həşəratlar, parazitlər, yoluxma, çirklənmə, adi köhnəlmə və dağılma, nəmişlik və ya atmosferin quraqlığı, hərarətin və ya rütubətin ifrat və ya kəskin dəyişən göstəriciləri, qatı duman və smoq, sıxılma, kiçilmə, buxarlanma, çəkinin itməsi, pas, yaş və ya quru çürüntü, korroziya, rəngdə, quruluşda, dadda və ya işləmədə baş verən dəyişiklik; əgər belə itkinin və ya zədənin baş verməsinə bilavasitə başqa cür istisna edilməyən təhlükələr səbəb olmayıbsa;

(m) məlumatların işlənmə vasitələrində baş verən maqnit və yaxud elektrik zədələnməsi və ya həyəcanlanması, kompüter sistemlərində olan elektron sənədlərin və yaxud başqa qeydlərin, proqramların və ya proqram təminatlarının pozulması, həyəcanlanması, təhrif olunması və yaxud korlanması;

(n) torpağın çökməsi, sürüşməsi və yaxud qalxması; bünövrələrin, divarların, damların, döşəmələrin, tavanların və ya səkilərin çökməsi, qabarması, çatlaması, sıxılması və yaxud genişlənməsi;

(o) içində maye materiallar saxlanan aqreqatların, maye materialları ötürücü xətlərin və/və yaxud onların tərkib hissələri olan ləvazimatların içindəki materialların bərkiməsi;

(p) aşağıda qeyd olunanlara dair hər hansı fərmanın, qanunun, əsasnamənin və yaxud əmrin bilavasitə və ya dolayısı ilə məcburi qaydada həyata keçirilməsi:

(i) bu Sığorta Müqaviləsinə əsasən sığorta edilmiş hər hansı əmlakın tikintisi, təmiri və yaxud sökülməsi; və yaxud

(ii) istehsal, qablaşdırma, nişanlama haqqında qanunlar və yaxud malların, əmtəənin, məmulatların və yaxud digər məhsulların Sığortalı tərəfindən paylanması;

(q) suyun və ya başqa mayelərin zirzəmilərdə saxlanan ehtiyatlara zərər vurması, əgər belə ehtiyatlar rəflərdə, ləmələrdə, taxçalarda, döşəmə səviyyəsindən ən azı dörd düym hündür olan altlıqların və/və yaxud stellajların üstündə saxlanılmayıbsa;

(r) qazanların, ekonomayzerlərin, tutumların, borucuq və boruların çatlaması, qırılması, dağılması və yaxud həddən artıq qızması, nippellərin axması və/və yaxud qazanların qaynaq yerlərinin buraxması;

(s) oğurluq, sahəyə/sahədən güc və ya zorakı vasitə ilə girişi/çıxışı və yaxud buna istənilən cəhdi nəzərdə tutan Oğurluqdan başqa, aşağıda qeyd olunan hallar istisna olmaqla:

(i) “Pul” tərifi altında müəyyən edilmiş əmlaka (əgər sığorta edilibsə);

(ii) hücum və/və yaxud zorakılıq və ya bu cür halların törədilməsinə olan hər hansı təhdid nəticəsində;

(t) su rezervuarlarının, aparatların və ya boruların partlaması, daşması, boşalması və yaxud sızması (əgər qida şəbəkəsindən gələn su bağlamayıbsa) və Sığortaçıya yazılı formada əvvəlcədən bildirilmədiyi halda, sahə boş olduğu və istifadə edilmədiyi zaman qəsdən vurulan ziyan;

(u) layihədə, spesifikasiyada, emalda, istehsalda, iş ustalığında, materiallarda olan səhvlər və yaxud qüsurlar, əgər itki istisna edilməmiş təhlükə nəticəsində baş vermişdirsə və ondan sonra Sığortaçı yalnız belə təhlükə nəticəsində baş vermiş itkiyə görə məsuliyyət daşıyacaqdır;

(v) mexanizmlərin və ya maşınların sınması və yaxud elektron və ya elektrik nasazlığı və ya pozulması, əgər itki istisna edilməmiş təhlükə nəticəsində baş vermişdirsə və ondan sonra Sığortaçı yalnız belə təhlükə nəticəsində baş vermiş itkiyə görə məsuliyyət daşıyacaqdır;

(w) Sahəyə təchiz edilən elektrik enerjisinin və ya başqa kommunal xidmət növünün kəsilməsi, əgər belə kəsilmə Sahədən kənarda baş verirsə, əgər itki istisna edilməmiş təhlükə nəticəsində baş vermişdirsə və ondan sonra Sığortaçı yalnız belə təhlükə nəticəsində baş vermiş itkiyə görə məsuliyyət daşıyacaqdır;

(x) torpaq sularının səviyyəsində dəyişikliklər və yalnız bu cür dəyişikliklərin səbəb olduğu ziyan və ya itki;

(y) boş və yaxud tutulmamış bina(lar)da su boruları sisteminin və ya yanğınsöndürmə sistemləri donması və yaxud qızması nəticəsində baş verən itki və ya zədə;

(z) oğurluq, toz və yaxud hər hansı hava şəraitinin təsiri nəticəsində (ildırım istisna olaraq) açıq yerdə saxlanan şəxsi əmlakın zədələnməsi və yaxud itkisi;

(aa) Çirklənmə və yaxud yoluxma, lakin bu, başqa cür yolla istisna olunması nəzərdə tutulmayıbsa, Sığorta Edilmiş Əmlakın aşağıda qeyd edilmiş səbəblərdən baş vermiş dağılmasını və ya zədələnməsini istisna etməyəcək:
(i) yanğın, çirklənmə, ildırım, partlayış, təyyarə və yaxud digər hava aparatları və yaxud onlardan düşən əşyalar, qiyam, ictimai iğtişaşlar, tətil edənlər, lokauta məruz qalmış işçilər, fəhlələrin iğtişaşlarında iştirak edən şəxslər, bədəməl şəxslər, zəlzələ, tufan, daşqın, hər hansı rezervuardan, aparatdan və yaxud borudan suyun sızması, hər hansı yol nəqliyyat vasitəsi və ya heyvanın vurduğu təsir, oğurluq və ya oğurluğa cəhd nəticəsində baş verən çirklənmə və ya yoluxma

(ii) özü çirklənmənin və ya yoluxmanın nəticəsində baş verən yuxarıda (i) sadalanmış təhlükələrin hər hansısı;

(ab) faktiki olaraq işlənən zaman və bu cür işin nəticəsi olaraq mallara vurulan ziyan, əgər itki istisna edilməmiş təhlükə nəticəsində baş vermişdirsə və ondan sonra Sığortaçı yalnız belə təhlükə nəticəsində baş vermiş itkiyə görə məsuliyyət daşıyacaqdır;

(ac) yolda olan əmlaka aid olaraq (əgər sığortalanıbsa), uyğun olmayan qablaşdırma, əyilmə, əzilmə, çapılma, korlanma və yaxud cızılma.

(ad) zəlzələ, yeraltı yanğın, vulkan püskürməsi və yaxud belə halların nəticəsində baş verən hər hansı yanğın və ya partlayış.

(ae) qiyam, tətillər, lokauta məruz qalmış işçilər, fəhlə iğtişaşları, ictimai iğtişaşlar və qəsdən vurulan ziyan hallarının istisna edilməsi

Sığorta Müqaviləsində və ya onun hər hansı genişlənmələrində nəzərdə tutulmuş müddəalara baxmayaraq, bununla bəyan edilir və razılaşdırılır ki, bütün digər şərtləri üstələyən birinci dərəcəli istisna kimi, bu Sığorta Müqaviləsi aşağıda qeyd edilmiş səbəblər üzündən hər hansı əmlaka vurulmuş itkini, məhv olmanı və ya zədəni və yaxud bunlardan nəticələnən hər hansı itkini əhatə etmir:

(i) qiyamlar, tətillər, işçilərin lokauta məruz qalması, fəhlə iğtişaşları, ictimai iğtişaşlar;

(ii) hər hansı qeyri-qanuni, hər hansı qeyri-qanuni cəmiyyət adından və yaxud belə cəmiyyətlə əlaqəli olaraq hərəkət edən şəxs və ya şəxslər tərəfindən törədilən səbəbsiz və ya cinayətkar hərəkət;

Qeyd: "Qeyri-qanuni Cəmiyyət" terrorizm fəaliyyəti ilə məşğul olan istənilən təşkilatı nəzərdə tutur və sığorta müqaviləsinin təsiri olan ərazidə bütün münasib vaxtlarda qadağan edilmiş təşkilatı özündə daxil edir.

"Terrorizm" siyasi məqsədlərə nail olmaq üçün zorakılıqdan istifadə edilməsini nəzərdə tutur və ictimaiyyəti və yaxud ictimaiyyətin hər hansı hissəsini qorxu altında saxlamaq məqsədilə zorakılığın hər hansı istifadəsini daxil edir.

# TERRORA QARŞI SIĞORTA

## FİZİKİ İTKİ VƏ YA FİZİKİ ZİYAN İLƏ BAĞLI İLKİN ŞƏRTLƏR

### SIĞORTA BƏNDİ

Aşağıda göstərilən istisnalar, limitlər və şərtlərə uyğun olaraq, Sığorta Müqaviləsi əlavə edilmiş və Sığorta Müqaviləsinin (bundan sonra "Əsas Sənəd" adlandırılacaq) bir hissəsini təşkil edən Əsas Sənəddə göstərildiyi kimi, mülkiyyəti burada müəyyən edilmiş Terror və ya Sabotaj Aktları nəticəsində Sığorta Müqaviləsi müddətində baş vermiş fiziki itki və ya fiziki ziyana qarşı sığortalayır.

Sığorta Müqaviləsinin predmetinə uyğun olaraq, Terror Aktı hər hansı şəxsin və ya şəxslərdən ibarət qrupun (qrupların) təkbaşına və ya hər hansı təşkilat(lar) və ya dövlət(lər) adından və ya onlarla birlikdə siyasi, dini, ideoloji məqsədlər, o cümlədən hər hansı hökumətə təsir etmək və / və ya ictimaiyyəti qorxu altına salmaq məqsədilə törədilmiş hər hansı hərəkətini, və ya hərəkətlərini, o cümlədən qüvvə və ya zorakılıqdan istifadəni ifadə edir.

Sığorta Müqaviləsinin predmetinə uyğun olaraq, sabotaj aktı siyasi, dini və ya ideoloji məqsədlərlə, o cümlədən hər hansı hökumətə təsir etmək və / və ya ictimaiyyəti qorxu altına salmaq məqsədilə törədilmiş təxribatçılıq hərəkətini və ya hərəkətlərini ifadə edir.

### İSTİSNA EDİLƏN İTKİLƏR

Sığorta Müqaviləsi aşağıdakılara qarşı sığortanı təmin etmir:

**1.** Nüvə partlayışı, nüvə reaksiyası, nüvə radiasiyası və ya radioaktiv çirklənmənin necə baş verməsindən asılı olmayaraq, birbaşa və ya dolayı yolla nüvə partlayışı, nüvə reaksiyası, nüvə radiasiyası və ya radioaktiv çirklənmədən irəli gələn itki və ya ziyan.

2. Birbaşa və ya dolayı yolla müharibə, işğal və ya müharibə xarakterli əməliyyatlar (elan edilib-edilməməsindən asılı olmayaraq), suveren və ya yerli dövlət orqanlarının düşmənçilik hərəkətləri, vətəndaş müharibəsi, üsyan, qiyam, inqilab, hərbi vəziyyət, hakimiyyətin ələ keçirilməsi, və ya buntun bir hissəsi hesab edilən və ya buntu təşkil edən mülki iğtişaş nəticəsində baş vermiş itki və ya ziyan.

3. Fiziki itki və ya ziyana birbaşa Terror Aktı və ya Sabotaj Aktı səbəb olmadığı təqdirdə, zəbt edilmə və ya qanuni və ya qeyri-qanuni işğal nəticəsində itki.

4. Əmlakın müsadirə edilməsi və ya dövlətin ixtiyarına keçirilməsi, tələb edilməsi, saxlanılması, üzərində embarqo qoyulması, təcrid edilməsi nəticəsində və ya dövlət və ya hökumət orqanının Sığorta olunanı öz mülkiyyətinin dəyərindən istifadə etməkdən məhrum edən hər hansı əmri nəticəsində itki və ya ziyan, eynilə, qaçaqmalçılıq aktları və ya qeyri-qanuni nəqletmə və ya qeyri-qanuni ticarətdən irəli gələn itki və ya ziyan.

**5.** Atmosfer çirkləndiriciləri və ya çirkləndirici maddələrin sızması və ya atqısından birbaşa və ya dolayı yolla irəli gələn və ya bunların nəticəsi olan itki və ya ziyan, atmosfer çirkləndiriciləri və çirkləndirici maddələrə məhdudiyyət olmadan hər hansı bərk, maye, qaz formasında və ya termik qıcıqlandırıcı maddə, çirkləndirici maddə və ya zəhərli və ya təhlükəli maddə və ya mövcudluğu və ya atqısı sağlamlıq, əməyin təhlükəsizliyi və ya insanların rifahı və ya ətraf mühiti təhlükəyə məruz qoyan və ya təhlükəyə məruz qoymaq riski olan hər hansı maddə daxildir.

**6.** Kimyəvi və ya bioloji emissiya, atqı, dağılma, yayılma və ya sızma və ya istənilən növ kimyəvi və ya bioloji təsirə məruz qalmadan birbaşa və ya dolayı yolla irəli gələn və ya bunların nəticəsi olan itki və ya ziyan.

**7.** Asbest emissiyası, atqısı, dağılması, yayılması və ya sızması və ya istənilən növ asbest təsirinə məruz qalmadan irəli gələn və ya bunların nəticə olan itki və ya ziyan.

**8.** Sığorta olunanın üzərinə düşən və ya hər hansı məhkəmə, dövlət müəssisəsi, dövlət hakimiyyəti və ya mülki orqan və ya hər hansı digər şəxs tərəfindən təyin edilmiş hər hansı cərimə, cəza və ya digər ödəniş.

**9.** Elektron vasitələrlə, o cümlədən məhdudiyyət olmadan kompüter xakerlərinin hərəkətləri ilə və ya istənilən növ kompüter virusunun tətbiqi ilə və ya informasiyanın pozulması və ya icazəsiz təlimatlar və ya kod və ya hər hansı elektromaqnit silahdan istifadə etmə nəticəsində itki və ya ziyan.

Bu istisna hər hansı kompüter, kompüter sistemi və ya kompüter proqram təminatının və ya hər hansı digər elektron sistemin hər hansı silah və ya raket kompleksinin işə salınması və / və ya istiqamətləndirilməsi sistemi və / və ya atılma mexanizmində istifadə edilməsindən irəli gələn itkilərə (əks halda Sığorta Müqaviləsi ilə əhatə edilən) aid edilmir.

**10.** Dələduzlar və ya pis niyyətlə hərəkət edən digər şəxslərin və ya etiraz və ya tətillər, əmək münaqişələri, qiyam və ya mülki iğtişaşın səbəb olduğu itki və ya ziyan.

**11.** Sığorta Müqaviləsi ilə sığortalanan hər hansı mülkiyyətin yenidən qurulması, təmiri və ya dağıdılmasını idarə edən hər hansı fərman və ya qanunun hər hansı dövlət və ya hökumət və ya yerli və ya mülki orqan tərəfindən həyata keçirilməsi ilə ortaya çıxan itki və ya xərclərin artması.

**12.** Faktiki və ta potensial terror və ya sabotajın qarşısını almaq, dayandırmaq və ya nəzarət etmək üçün tədbirlər həyata keçirilməzdən əvvəl Sığorta şirkəti ilə yazılı formada razılaşdırılmayana qədər həmin tədbirlərin görülməsi nəticəsində ortaya çıxan itki və ya ziyan.

**13.** Hər hansı dolayı itki və ya ziyan, istismar imkanlarının itirilməsi, bazarın dayanması və ya itirilməsi, gəlir itkisi, dəyərin düşməsi, iş funksionallığının azalması və ya iş xərclərinin artması.

**14.** Su, qaz və ya elektrik təchizatı və telekommunikasiya və ya istənilən növ xidmətin dayandırılması, qeyri-sabitliyi, dəyişkənliyi və ya çatışmazlığını əhatə edən, lakin bunlarla məhdudlaşmayan amillərin səbəb olduğu itki və ya ziyan.

**15.** Təhlükə və ya fırıldaq nəticəsində itki və ya xərclərin artması.

**16.** Zorakılıqla soxulma, evin dağıdılmaqla basılması, soyğunçuluq, oğurluq və ya əmlakın qaçırılmasının səbəb olduğu və ya bunlardan irəli gələn itki və ya ziyan.

**17.** Sirli yox olma və ya izah edilməyən itkinin səbəb olduğu itki və ya ziyan.

**18.** Kif göbələyi, kif, göbələk, sporlar, və ya istənilən növ, xarakter və xüsusiyyətə malik olan digər mikroorqanizmlər, o cümlədən məhdudiyyət olmadan, mövcudluğu insan sağlamlığı üçün faktiki və ya potensial təhlükə olan hər hansı maddələrin birbaşa və ya dolayı yolla səbəb olduğu itki və ya ziyan.

**Hissə 4**

## İSTİSNA EDİLƏN MÜLKİYYƏT

Sığorta Müqaviləsi aşağıda qeyd edilənlərin fiziki itkisini və ya onlara dəyən ziyanı əhatə etmir:

**1.** Torpaq və torpaq dəyərləri.

**2.** Sığorta olunan mülkiyyətində olmayan elektrikin məsafəyə verilməsi xətləri, qidalandırıcı xətlər və ya boru kəmərləri.

**3.** Otuz gündən artıq boş və ya kimsənin yaşamadığı və ya işlək vəziyyətdə olmayan hər hansı bina və ya konstruksiya və orada olan mülkiyyət, normal vəziyyətdə mülkiyyətdə kimsənin olmaması nəzərdə tutulan hallar istisna olmaqla.

**4.** Təyyarə və ya hər hansı digər hava qurğusu və ya gəmi.

**5.** Hər hansı yerüstü nəqliyyat vasitəsi, o cümlədən avtomobil nəqliyyatı, lokomotivlər və ya mütəhərrik qatar, yerüstü nəqliyyat vasitəsinin ziyan dəydiyi vaxt bu sığorta Müqaviləsi ilə sığortalanmış mülkiyyətdə olması bəyan edilən və ya müstəsna mülkiyyətdə olduğu hallar istisna edilməklə.

**6.** Heyvanlar, bitkilər və bütün canlı varlıqlar.

**7.** Sığorta olunanın mülkiyyətində olmayan daşınmaqda olan mülkiyyət.

# ŞƏRTLƏR

## 1. BİRGƏ SIĞORTA OLUNANLAR

Sığorta Müqaviləsinə əsasən Sığorta olunanların hər hansı birinin və ya bir neçəsinin məruz qaldığı hər hansı itki və ya itkilər üçün Sığorta şirkətlərinin ümumi məsuliyyəti Əsas Sənəddə göstərilən sığorta məbləğindən yüksək olmayacaq. Sığorta şirkətləri məbləğin bütün Sığorta olunanların və ya Sığorta olunanlardan biri və ya bir neçəsinin məruz qaldığı sığorta olunmuş itkilərdən ibarət olmasından asılı olmayaraq, sığorta məbləğindən artıq heç bir məsuliyyət daşımır.

## 2. DİGƏR SIĞORTA

Sığorta Müqaviləsi üzərində xüsusi olaraq eksedent kimi yazılmış digər sığorta Müqaviləsi istisna olmaqla, bu Sığorta Müqaviləsi Sığorta olunan üçün əlverişli olan, burada nəzərdə tutulan itkini sığortalayan hər hansı digər sığorta müqaviləsini üstələyir. Bu Sığorta müqaviləsinin burada sığortalanan riski əhatə edən digər sığorta müqaviləsindən üstün olduğu xüsusi qeyd edildikdə, Sığorta Müqaviləsi ilk sığorta müqaviləsinin məbləği bu Sığorta Müqaviləsi ilə əhatə edilən itki və ziyanla hər sığorta edilən itki ilə əlaqədar azadolmadan artıq işlədilənə qədər tətbiq edilmir.

## 3. VƏZİYYƏT

Sığorta Müqaviləsi Əsas Sənəddə göstərilən ünvanda yerləşən mülkiyyəti sığorta edir.

## 4. SIĞORTA MƏBLƏĞİ

Bu sənəddə nəzərdə tutulan Sığorta Şirkətləri hər hadisə və Sığorta Müqaviləsi üzrə ümumi məbləğlə bağlı Əsas Sənəddə göstərilən sığorta məbləğindən artıq məbləğ üçün məsuliyyət daşımır.

## 5. AZADOLMA

Hər hadisə ayrıca tənzimlənəcək və hər bir belə məbləğdən Əsas Sənəddə göstərilən məbləğ çıxılmalıdır.

## 6. HADİSƏ

"Hadisə" termini eyni məqsəd və ya səbəbdən bir Terror və ya Sabotaj Aktı və ya Aktlarından irəli gələn və birbaşa onların yaratdığı hər hansı itki və / və ya itkiləri ifadə edir. Hər bir "Hadisənin" davamlılığı və dərəcəsi eyni məqsəd və ya səbəbdən bu sığorta Müqaviləsi ilə sığortalanan mülkiyyətdə 72 ardıcıl saat ərzində Sığorta olunanın məruz qaldığı bütün itkilərlə məhdudlaşır. Lakin Sığorta olunan qeyd edilən 72 ardıcıl saatın başa çatmasından əvvəl və ya həmin müddət ərzində Terror Aktı və ya Sabotaj Aktı ilə birbaşa fiziki ziyana məruz qalmadığı halda, nə də 72 ardıcıl saat müddəti Sığorta Müqaviləsi nə qoşulmazdan əvvəl başladıqda, heç bir ardıcıl 72 saat müddəti bu Sığorta Müqaviləsinin başa çatmasından sonrakı vaxta şamil edilə bilməz.

## 7. DAĞINTILARIN TƏMİZLƏNMƏSİ

Sığorta Müqaviləsi həmçinin sığorta məbləği daxilində Terror Aktı və ya Sabotaj Aktı ilə ziyan dəymiş, Əsas Sənəddə göstərilən mülkiyyətin dağıntılarının sığorta yerindən təmizlənməsi ilə əlaqədar çəkilən xərcləri əhatə edir.

Dağıntıların təmizlənməsi xərcləri sığorta edilən mülkiyyətin qiymətinin müəyyənləşdirilməsində nəzərə alınmamalıdır.

## 8. LAZIMİ PROSEDURLARDAN İSTİFADƏ

Sığorta olunan (və ya Sığorta olunanın agentləri, sub və ya həm-podratçılarından hər hansı biri) lazımi prosedurlardan istifadə etməli və sığorta olunmuş mülkiyyəti qorumaq və ya yerini dəyişdirmək, bu sığorta Müqaviləsi ilə sığortalanan hər hansı itkiyə yol verməmək və ya həmin itkini azaltmaq və hər hansı belə itki üçün kompensasiyanı təmin etmək, o cümlədən hər hansı hüquqlar və ya müdafiə vasitələrini həyata keçirmək üçün və ya təzminat əldə etmək üçün digər tərəflərə qarşı hərəkət daxil olmaqla bütün ağlabatan işləri görməlidir.

## 9. MÜHAFİZƏNİN VASİTƏSİNİN SAXLANILMASI

Sığorta olunan mülkiyyətin təhlükəsizliyi üçün təmin edilən hər hansı mühafizə vasitəsinin bu Sığorta Müqaviləsinin davam etmə müddətində lazımi qaydada saxlanılması və bütün uyğun vaxtlarda istifadə ediləcəyi razılaşdırılır və həmin mühafizə vasitəsi Sığorta şirkətlərinin razılığı olmadan onların maraqlarının əksinə geri alına və ya dəyişdirilə bilməz.

## 10. QİYMƏTLƏNDİRMƏ

Mülkiyyətə zərər dəydikdə, hesablaşmanın aşağıdakı şərtlərə müvafiq olaraq mülkiyyətin eyni yerdə və ya ən yaxın əlverişli yerdə (ən az xərclərlə başa gələn) eyni növ və keyfiyyətdə olan materialdan, amortizasiya çıxılmadan təmiri, əvəz edilməsi və ya bərpası xərclərinə (hansı daha az olarsa) əsaslanacağı qəbul edilir:

Təmir, əvəzetmə və ya bərpa (bundan sonra "əvəzetmə" adlandırılacaq) lazımi prosedurlardan istifadə və səmərəliliklə icra edilməlidir;

Əvəzetmə həyata keçirilənə qədər, itki ilə əlaqədar Sığorta Müqaviləsinə əsasən məsuliyyət məbləği itki baş verdiyi vaxt faktiki dəyərlə məhdudlaşır;

Eyni növ və keyfiyyətdə olan materialla əvəzetmə hər hansı qanunaltı aktlar, fərman və ya qanunla məhdudlaşdırılır və ya qadağan edilirsə, əvəzetmə üçün hər hansı artan xərclər bu Sığorta Müqaviləsi ilə əhatə edilmir.

Sığorta Müqaviləsinə əsasən Sığorta şirkətlərinin məsuliyyəti aşağıdakı məbləğlərin ən azından yüksək olmamalıdır:

Dağıdılmış və ya ziyan dəymiş mülkiyyətə tətbiq edilən Sığorta Müqaviləsi limiti,

Eyni məskunlaşma və ya istifadə üçün nəzərdə tutulan, mülkiyyətin və ya onun hər hansı hissəsinin itki vaxtı hesablanmış əvəz edilmə xərci,

Qeyd edilən mülkiyyət və ya onun hər hansı hissəsinin əvəz edilməsi üçün faktiki və zəruri sərf edilmiş məbləğ.

Sığorta şirkətləri normal şərtlər altında Sığorta olunanın sığortalanmış mülkiyyətin təmirini və ya əvəz edilməsini həyata keçirəcəyini nəzərdə tutur, lakin Sığorta olunan və Sığorta Şirkətləri bunu həyata keçirmənin ağlabatan olmadığı ilə bağlı razılığa gələrsə, Sığorta şirkətləri əks halda ödənilməyəcək haqlar və əlaqədar xərclər çıxılmaqla, təmir və ya əvəzetmə xərcləri əsasında məbləği Sığorta olunana ödəyəcək. Sığorta şirkətləri yalnız Əsas Sənəddə göstərilən Sığorta Məbləğinə qədər Sığorta olunana ödəniş edəcək.

## 11. QEYRİ-DÜZGÜN BİLDİRİŞLƏ BAĞLI CƏRİMƏ

Əsas Sənəddə göstərildiyi kimi bildirilmiş dəyərlər yuxarıda müəyyən edilmiş düzgün sığorta dəyərlərindən azdırsa, Sığorta Müqaviləsinə əsasən ödəniləcək hər hansı kompensasiya eyni miqdarda azaldılmalıdır ki, bildirilmiş dəyərlər bildiriləcək dəyərlərə əsaslansın və Sığorta olunan balans üçün birgə sığortalamanı həyata keçirməlidir.

## 12. İDDİALAR HAQQINDA BİLDİRİŞ

Sığorta olunan Sığorta Müqaviləsinə əsasən iddianın irəli sürməsinə təkan verəcək hər hansı hadisə haqqında məlumatlı olduqda, o, Sığorta şirkətlərinə və / və ya adı qeyd edilən məqsədlə Əsas Sənəddə göstərilən Vasitəçiyə mümkün qədər tez vaxt ərzində yazılı məlumat verməlidir, Vasitəçi hər hansı hadisə haqqında məlumatlı olduğu tarixdən yeddi (7) gün ərzində Sığorta şirkətlərini məlumatlandırmalıdır və həmin bildirişin bu Sığorta Müqaviləsində nəzərdə tutulduğu kimi Sığorta olunan tərəfindən verilməsi ilkin şərtdir.

Sığorta olunan Sığorta Müqaviləsinə əsasən iddia irəli sürürsə, o, Sığorta şirkətlərinə məqsədəuyğun olaraq tələb oluna biləcək müvafiq informasiyanı və dəlilləri verməli və hər hansı iddianın araşdırılması və ya tənzimlənməsində tam əməkdaşlıq etməlidir. Sığorta şirkətləri tərəfindən tələb olunarsa, Sığorta olunan Sığorta şirkətləri tərəfindən təyin edilmiş hər hansı şəxs tərəfindən andiçmə ilə yoxlamadan keçirilə bilər.

## 13. SIĞORTA HADİSƏSİ HAQQINDA BİLDİRİŞ

Sığorta olunan itkinin baş verməsindən sonra altmış (60) gün ərzində itkinin baş vermə vaxtı, yeri və səbəbini, Sığorta olunanın və digərlərinin mülkiyyətdə olan marağını, mülkiyyətin ümumi dəyərini və mülkiyyətə dəyən ziyan və itkinin dəyərini göstərməklə, sığorta hadisəsi haqqında imzalanmış və təsdiq edilmiş bildirişi təqdim etməlidir.

Sığorta şirkətləri Sığorta Müqaviləsinin müddətinin başa çatmasından sonra iki il ərzində sığorta hadisəsi haqqında bildirişi almazsa, onlar Sığorta Müqaviləsinə əsasən bütün məsuliyyətdən azad edilirlər.

Sığorta Müqaviləsinə əsasən itki üzrə iddianı həyata keçirmək üçün hər hansı iddiada və / və ya hərəkətdə, məhkəmə işi və ya prosedurunda itkinin Sığorta Müqaviləsinə əsasən kompensasiya edilə bilən olduğunu və bu Sığorta Müqaviləsinin heç bir məhdudiyyəti və ya istisnasının tətbiq olunmadığını təsdiq etmək üçün xərclər və itki həcmi Sığorta olunanın üzərinə düşür.

**14. SUBROQASİYA**

Sığorta Müqaviləsinə əsasən itkidən əvvəl Sığorta olunan tərəfindən yazılı formada qəbul edilmiş məsuliyyətdən azad edilmə Sığorta Müqaviləsinə və ya Sığorta olunanın Sığorta Müqaviləsinə əsasən kompensasiya edilmək hüququna təsir etmir. Sığorta olunanın törəmə şirkətləri və ya filialları və ya sahibkarlıq və ya idarəetməsi vasitəsilə Sığorta olunan ilə əlaqədar olan şirkətlərdən hər hansı birinə qarşı subroqasiya hüququndan imtina edilir;

Sığorta Müqaviləsinə əsasən hər hansı ödəniş həyata keçirildikdə, Sığorta şirkətləri Sığorta olunanın bununla bağlı bütün kompensasiya hüququna ödəniş həcmində subroqasiya olunmalıdır. Sığorta olunan bütün tələb olunan imzalamalı, Sığorta şirkətləri ilə əməkdaşlıq etməli, Sığorta şirkətləri tərəfindən tələb olunduqda məhkəmə iclasları və məhkəmə iclaslarında iştirak etməli, hesablaşmaların həyata keçirilməsi, dəlillərin təmin edilməsi və verilməsi, şahidlərin iştirakına nail olmaq və məhkəmə işlərinin keçirilməsində yardım etməli və həmin hüququn təmin olunması üçün zəruri olan hər hansı işləri görməlidir. Sığorta şirkətləri həmin kompensasiya hüququnun icrasında digər əlaqədar maraqlı şəxslərlə (o cümlədən, Sığorta olunanın) əlaqələndirilmiş formada hərəkət edəcək. Bu kimi məhkəmə proseduru nəticəsində hər hansı məbləğ kompensasiya edilərsə, həmin məbləğ aşağıdakı prioritetə uyğun olaraq paylanmalıdır:

(i) Hər hansı azadolma və ya özünü sığorta üzrə tutulan məbləğ nəzərə alınmadan, Sığorta Müqaviləsi ilə itkiyə məruz qalan hər hansı maraq, (o cümlədən Sığorta olunan maraqları) həmin itki məbləğində kompensasiya edilməlidir (azadolma məbləği nəzərə alınmadan);

(ii) Qalan hissədən Sığorta şirkətləri Sığorta Müqaviləsinə əsasən ödəniş həcmində kompensasiya ediləcək;

(iii) Balans qalarsa, həmin balans həmin əsas sığorta, azadolma, özünü sığorta üzrə tutulan məbləğ və / və ya bu Sığorta Müqaviləsi ilə əhatə edilməyən itki növü ilə bağlı Sığorta olunanın və ya əsasən bu Sığorta Müqaviləsi üçün sığortanı təmin edən sığortaçılardan hər hansı birinin xeyrinə hüquqi qüvvəyə malik olacaq.

Hər hansı bu kimi məbləğin kompensasiya edilməsi üçün zəruri olan bütün prosedurlar üzrə xərclər əlaqədar maraqlar, o cümlədən Sığorta olunanın maraqları arasında onların yekun müəyyən edilmiş müvafiq kompensasiyası nisbətində bölünəcək. Əgər heç bir kompensasiya olmazsa və prosedurlar yalnız Sığorta şirkətlərinin təşəbbüsü ilə həyata keçirilirsə, bunun üçün xərclər Sığorta şirkətləri tərəfindən çəkilməlidir.

**15. XİLAS EDİLMİŞ MÜLKİYYƏT VƏ TAPINTILAR**

Bütün xilas edilmiş mülkiyyət, tapıntılar, Sığorta Müqaviləsinə əsasən itkinin həllindən sonra kompensasiya edilmiş və ya alınmış ödənişlər həmin itkinin həllindən əvvəl kompensasiya edilmiş və ya alınmış olaraq nəzərə alınmalı və bütün zəruri tənzimlənmələr sığorta müqaviləsinin tərəfləri tərəfindən həyata keçirilməlidir.

**16. SAXTA VƏ YA YALAN İDDİALAR**

Sığorta olunan saxta və ya yalan olduğunu bilərək məbləğ və ya digər vəziyyətlərlə bağlı iddia irəli sürərsə, Sığorta Müqaviləsi etibarlılığını itirir və Sığorta Müqaviləsinə əsasən bütün iddialar və sığorta təzminatları ləğv edilir.

**17. TƏHRİF**

Sığorta olunan Sığorta Müqaviləsi ilə əlaqədar hər hansı maddi faktı və ya vəziyyəti gizləyərsə, və ya təhrif edərsə, Sığorta Müqaviləsi etibarlılığını itirir. Sığorta olunan maddi fakt(lar) və ya vəziyyət(lər)in nədən ibarət olduğundan əmin deyilsə, onlar öz vasitəçiləri və ya agenti ilə məsləhətləşməlidir.

**18. MÜLKİYYƏTDƏN İMTİNA**

Sığorta şirkətlərinə qarşı hər hansı mülkiyyətdən imtina edilə bilməz.

**19. YOXLAMA VƏ AUDİT**

Sığorta şirkətləri və ya onların agentlərinə istənilən vaxt Sığorta olunan mülkiyyətini yoxlamağa icazə verilir, lakin məcbur edilmir.

Nə Sığorta şirkətlərinin yoxlamaları həyata keçirmək hüququ, nə həmin yoxlamanın həyata keçirilməsi, nə də bununla bağlı hər hansı hesabat Sığorta olunan və ya digərlərinin adından və ya onların xeyrinə həmin mülkiyyətin etibarlı olmasını müəyyən etmək və ya buna zəmanət vermək öhdəliyini təşkil etmir.

Sığorta şirkətləri istənilən vaxt Sığorta Müqaviləsinə yekun xitam verilməsindən sonra iki ilə qədər Sığorta Müqaviləsinin predmeti ilə əlaqədar olmaq şərti ilə, Sığorta olunanın hesabları və sənədlərini yoxlaya və auditini keçirə bilər.

**20. TƏYİNAT**

Sığorta Müqaviləsinin başqa tərəfin üzərinə təyin edilməsi və ya ötürülməsi Sığorta şirkətlərinin əvvəlcədən yazılı razılığı olmadan etibarlı deyil.

**21. ÜÇÜNCÜ TƏRƏFLƏRİN İSTİSNA EDİLMƏSİ HÜQUQU**

Sığorta Müqaviləsi yalnız Sığorta olunan və Sığorta şirkətləri arasında həyata keçirilir.

Sığorta Müqaviləsi hər hansı üçüncü şəxslər, o cümlədən səhmdarlara hər hansı sığorta təzminatını vermir və heç bir üçüncü tərəf Sığorta Müqaviləsinin hər hansı şərtinin yerinə yetirilməsini tələb edə bilməz.

Bu bənd Sığorta olunanın hüquqlarına təsir etmir.

**22. LƏĞV ETMƏ**

Sığorta haqqının ödənilmədiyi hallar istisna olmaqla, bu Sığorta Müqaviləsi Sığorta şirkətləri və ya Sığorta olunan tərəfindən ləğv edilə bilməz, sığorta haqqı ödənilmədiyi halda, Sığorta şirkətləri Sığorta müqaviləsini öz mülahizəsinə uyğun olaraq ləğv edə bilər.

Sığorta haqqı ödənilmədiyi halda bu Sığorta Müqaviləsi Sığorta Şirkətləri tərəfindən və ya adından Sığorta olunana və ya Vasitəçiyə Sığorta olunanın bu Sığorta Müqaviləsində göstərilən ünvanına sifarişli, təsdiq edilmiş və ya digər bildirişli məktub vasitəsilə yazılı bildirişin göndərilməsi ilə ləğv edilə bilər, həmin bildirişin göndərilməsindən on beş (15) gündən az olmayan vaxtın keçməsindən sonra həmin ləğvetmə etibarlı sayılır. Həmin bildirişin poçtla göndərilməsi bildiriş üçün lazımi sübut hesab edilir və Sığorta Müqaviləsi həmin bildirişdə göstərilən tarixdə və saatda dayandırılır.

Bildirişin təqdim edilməsi ilə bağlı məhdudlaşdırma müddəti bildirişin təfsirini idarə edən hər hansı qanunla qadağan edilərsə, və ya etibarsız sayılarsa, həmin müddət həmin qanunla yol verilən minimum məhdudlaşdırma müddətinə bərabər olmaqla dəyişdirilmiş hesab edilməlidir.

**23. ARBİTRAJ**

Sığorta olunan və Sığorta şirkətləri bu Sığorta Müqaviləsinin hər hansı aspekti ilə əlaqədar bütünlüklə və ya qismən razılığa gələ bilməzsə, tərəflərdən hər biri istənilən tərəfin yazılı tələbindən sonra on (10) gün ərzində səlahiyyətli və qərəzsiz arbitri təyin etməli və iki (2) seçilmiş arbitr arbitrajın başlanmasından əvvəl səlahiyyətli və qərəzsiz hakimi təyin etməlidir.

Arbitrlər birlikdə Sığorta olunan və Sığorta şirkətlərinin razılığa gələ bilmədikdə məsələləri müəyyən etməli və həmin məsələ üzrə qərar çıxarmalıdırlar, iki (2) arbitrdən hər hansı birinin müvafiq qaydada təsdiq edilmiş qərarında eyni məsələ müəyyən edilməlidir, və onlar razılığa gələ bilməzsə, fikir ayrılıqları hakimə təqdim edilməlidir.

Həmin arbitraj tərəfləri müvafiq olaraq təyin etdikləri arbitrlərə ödəniş etməli və arbitraj xərcləri və hakimin haqqı ilə bağlı xərcləri bərabər çəkməlidirlər.

**24. FƏRDİ MƏSULİYYƏT**

Sığorta Müqaviləsinə əsasən Sığorta şirkətlərinin öhdəliyi fərdidir və birgə deyil və yalnız onların fərdi üzvlük məbləği ilə məhdudlaşır. Sığorta şirkətləri hər hansı səbəbdən öhdəliklərinin hamısını və ya bir qismini yerinə yetirməyən hər hansı üzv Sığorta şirkətinin üzvlüyü üçün məsuliyyət daşımır.

**25. SIĞORTA ŞİRKƏTLƏRİNƏ QARŞI HÜQUQİ PROSES**

Aşağıdakı hallar istisna olmaqla heç kəs Sığorta şirkətlərinə qarşı hüquqi proses qaldıra bilməz:

Bu Sığorta müddəti ərzində Sığorta olunan bütün şərtlərə tam riayət edir; və

Hüquqi proses Sığorta Müqaviləsinin müddətinin başa çatması və ya ləğv edilməsindən sonra iki (2) il ərzində qaldırılır.

**26. MÜHÜM DƏYİŞİKLİKLƏR**

Sığorta olunan bu Sığortaya əhəmiyyətli dərəcədə təsir edəcək hər hansı vəziyyət dəyişikliyi haqqında Sığorta şirkətlərinə məlumat verməlidir.

**27. MÜTƏXƏSSİS HAQLARI**

Sığorta Müqaviləsi sığorta məbləği daxilində Sığorta Müqaviləsi nə əsasən sığortalanan itkidən sonra sığortalanmış mülkiyyətin bərpası və təmirində arxitektorlar, tədqiqatçılar, məsləhətçi mühəndislər və digər peşəkar mütəxəssislər üçün zəruri və ağlabatan haqları əhatə edir.

**28. QANUN**

Əsas sənəddə göstərildiyi kimi.

**29. YURİSDİKSİYA**

Əsas sənəddə göstərildiyi kimi.

**30. PROSESSUAL BİLDİRİŞ**

Bu Prosessual Bildiriş Bəndi yalnız ABŞ-da yaşayan Sığorta olunanlara tətbiq edilir.

Bu Prosessual Bildiriş Bəndi bu Sığorta Müqaviləsində Arbitraj müddəasında nəzərdə tutulduğu kimi tərəflərin öz mübahisələrinin arbitrajını aparmaq öhdəliklərinə zidd olaraq oxunmamalı və ya onları üstələməməlidir. Bu Bənd arbitraja nail olunmasına və ya həmin arbitrajın və ya arbitraj qərarının həyata keçirilməsinə dəstək kimi nəzərdə tutulur və bu sığorta müqaviləsindən irəli gələn mübahisələrin həll edilməsi üçün həmin Arbitraj müddəasına alternativ olaraq nəzərə alınmamalıdır.

Sığorta Müqaviləsinə əsasən iddia edilən hər hansı məbləğ Sığorta Şirkətləri tərəfindən ödənilməzsə, həmin Sığorta şirkətləri Sığorta olunanın tələbi ilə Amerika Birləşmiş Ştatları daxilində səlahiyyətli yurisdiksiya məhkəməsinin yurisdiksiyasına tabe olacaq. Bu Bənddə nəzərdə tutulanlardan heç biri Sığorta şirkətlərinin Amerika Birləşmiş Ştatlarında hər hansı səlahiyyətli yurisdiksiya məhkəməsində iş qaldırmaq, məhkəmə işini Amerika Birləşmiş Ştatları federal birinci instansiya məhkəməsinə keçirmək, və ya Birləşmiş Ştatların və ya Birləşmiş Ştatlarda hər hansı Ştatın qanunları ilə yol verildiyi kimi digər məhkəməyə keçirilmək üçün müraciət hüquqlarından imtina kimi nəzərə alınmır.

Bundan başqa, razılaşdırılır ki, bu kimi məhkəmə işində prosessual bildiriş sığorta şirkətlərinin Əsas Sənəddə göstərilən nümayəndələri vasitəsilə həyata keçirilə bilər və bu müqavilə üzrə onlardan hər hansı birinə qarşı qaldırılmış hər hansı məhkəmə işində Sığorta şirkətləri həmin Məhkəmə və ya apelyasiya aparıldığı təqdirdə hər hansı Apelyasiya Məhkəməsinin yekun qərarına tabedirlər.

Yuxarıda qeyd edilənlər hər hansı belə məhkəmə işində Sığorta şirkətləri adından prosessual bildirişi almaq və / və ya Sığorta olunanın tələbi ilə bu kimi məhkəmə işi qaldırıldıqda Sığorta şirkətləri adından iştirak edəcəkləri ilə bağlı Sığorta olunan qarşısında yazılı öhdəliyi götürmək səlahiyyətinə malikdirlər.

Bundan başqa, ABŞ-ın hər hansı ştatının, ərazisinin və ya əyalətinin qanununa müvafiq olaraq, Sığorta Müqaviləsi üzrə Sığorta Şirkətləri qanunda həmin məqsədlə göstərilmiş Müfəttiş, Komissar və ya Sığorta Direktorunu və ya ofisdə öz xələfini və ya xələflərini öz həqiqi və qanuni nümayəndələri kimi təyin edə bilərlər ki, bu sığorta müqaviləsinə əsasən Sığorta olunan və ya hər hansı faydalanan tərəfindən qaldırılmış hər hansı məhkəmə işi və ya prosedurunda hər hansı hüquqi bildiriş qeyd edilən nümayəndələrə təqdim edilə bilər, və bununla da yuxarıda qeyd edilən şəxs həmin məmurun prosessual bildiriş və ya onun təsdiq edilmiş surətini göndərə biləcəyi şəxs kimi təyin edilir.

**31. QEYRİ ABŞ HÜQUQİ XİDMƏTİ**

Sığorta Müqaviləsi ilə bağlı Sığorta Şirkətlərinə qarşı hər hansı hüquqi prosedurun başlanması məqsədilə onlara təqdim ediləcək hər hansı çağırış, bildiriş onların adından çağırışı qəbul etmək səlahiyyətinə malik olana təqdim edilə bilər.

## TERRORA QARŞI SIĞORTA

**İş Fəaliyyətin Dayandırılması üzrə Əlavənin ilkin şərtləri**

Ödənilən sığorta haqqını nəzərə alaraq, və bu Əlavənin əlavə edildiyi Sığorta müqaviləsinin İSTİSNALARI, ŞƏRTLƏRİ VƏ MƏHDUDİYYƏTLƏRİNƏ, və həmçinin ƏLAVƏ ŞƏRTLƏR, İSTİSNALAR VƏ MƏHDUDİYYƏTLƏRƏ müvafiq olaraq, bu Sığorta Müqaviləsi sığorta olunan mülkiyyətə bu Əlavənin əlavə edildiyi Sığorta Müqaviləsi ilə əhatə edilən Terror Aktı və ya Terror Aktları nəticəsində Birbaşa Fiziki İtki və ya Ziyana məruz qalan, sığortalanmış yerdə İşgüzar Fəaliyyətin məcburi Dayandırılması nəticəsində ortaya çıxan itkinin sığortalanmasına tətbiq edilir.

Bu kimi Birbaşa Fiziki İtki və ya Ziyan hallarında Sığorta şirkətləri İşgüzar Fəaliyyətin məcburi Dayandırılması nəticəsində Sığortalanmışın məruz qaldığı Faktiki İtki üçün məsuliyyət daşıyır, lakin bu məsuliyyət aşağıdakılardan ən azından artıq olmayan müddətdə İşgüzar Fəaliyyətin Dayandırılması ərzində zəruri olmayan ödənişlər və xərclər çıxılmaqla aşağıda müəyyən edildiyi kimi Ümumi Gəlirlərdə azalmadan artıq olmamalıdır:

a) mülkiyyətin dağıdılmış və ya ziyan dəymiş hissəsinin təmiri, yenidən qurulması və ya əvəz edilməsi üçün lazımi prosedurların yerinə yetirilməsi və icrası ilə tələb oluna biləcək vaxt müddəti,

yaxud

(b) həmin Birbaşa Fiziki İtki və ya Ziyan baş verdiyi tarixdən başlayan və bu sığorta müqaviləsinin başa çatmasından on iki (12) təqvim ayı ilə məhdudlaşdırılmayan

İtkidən əvvəl mövcud olan eyni əmək qabiliyyəti ilə Sığortalanmışın əməliyyatlarını bərpa etmək üçün lazımi səviyyədə əməyin ödənilməsi üzrə xərclər də daxil olmaqla, normal ödənişlər və xərclərin davam etdirilməsinə lazımi diqqət yetirilməlidir.

ŞƏRTLƏR

1. BİRBAŞA ZİYAN

Bu Əlavənin əlavə edildiyi Sığorta Müqaviləsi ilə əhatə edilən və İşgüzar Fəaliyyətin Dayandırılmasına səbəb olan Terror Aktı və ya Terror Aktları nəticəsində Birbaşa Fiziki İtki və ya Ziyan ilə bağlı iddia ödənilənə və ya məsuliyyət qəbul edilənə qədər bu Əlavəyə əsasən heç bir iddia üçün ödəniş həyata keçirilməməlidir.

Hər hansı belə ödəniş itki üçün məsuliyyəti qeyd edilən məbləğdən aşağı olan itkilər üçün istisna edən azadolmanın tətbiqinə görə həyata keçirilmirsə, və ya məsuliyyət qəbul edilmirsə, bu şərt tətbiq edilmir.

2. ƏMƏLİYYATLARIN BƏRPASI

Əgər Sığortalanmış şəxs İşgüzar Fəaliyyətin Dayandırılmasından əmələ gələn itkini aşağıdakılar vasitəsilə azalda bilsə,

a) mülkiyyətin fəaliyyətinin tam və ya qismən bərpası,

və/və ya

b) Sığortalanmışın məkanında və ya digər yerdə mallardan, ehtiyatlardan (emalda olan və ya emalı başa çatmış xammal) və ya digər istənilən əmlakdan istifadə etmək,

və/və ya

c) hər hansı bir yerdə əməliyyatlardan istifadə və ya əməliyyatların artırılması ilə,

bu zaman, həmin mümkün azalma itkinin məbləğində göstərilməklə nəzərə alınmalıdır.

3. İTKİNİN AZALDILMASI ÜÇÜN XƏRCLƏR

Bu Əlavə həmçinin bu Əlavəyə əsasən itkinin azaldılması məqsədilə məcburi ortaya çıxmış xərcləri (yanğının söndürülməsi üçün ortaya çıxan xərclər istisna olmaqla) və İstehsal Riskləri ilə bağlı bu Əlavəyə əsasən itkini azaltmaq üçün Sığortalanmış tərəfindən istifadə edilən hər hansı emalı tamamlanmış məhsulun məcburi əvəz edilməsi ilə ortaya çıxacaq normal xərclərdən yüksək xərcləri əhatə edir; lakin heç bir halda məbləğ bu Əlavəyə əsasən itkinin azaldıldığı məbləğdən yüksək olmamalıdır. Bu kimi xərclərə hər hansı cavabdehlik payının əvəz edilməsi haqqında düzəliş tətbiq edilmir.

4. <u>DƏYƏRİN ÖLÇÜLMƏSİ</u>

Bütün məbləğ və mühasibə təfərrüatları Sığortalanmışın Ümumi Qəbul Olunmuş Hesab Standartlarından istifadə edilməklə hesablanmalıdır .

<u>İSTİSNALAR</u>

BU ƏLAVƏ AŞAĞIDAKILARA QARŞI SIĞORTANI TƏMİN ETMİR:

1. Sığorta olunan mülkiyyətinə tətilçilərin və ya digər şəxslərin müdaxiləsi nəticəsində mülkiyyətin yenidən qurulması, təmiri və ya əvəz edilməsində və ya əməliyyatların bərpası və ya davam etdirilməsində itkinin artması.

2. Hər hansı icarə müqaviləsi, lisenziya, müqavilə və ya əmrin dayandırılması, etibarlılığının itməsi və ya ləğv edilməsi nəticəsində itkinin artması, qeyd edilənlərin İşgüzar Fəaliyyətin Dayandırılmasının birbaşa nəticəsi olduğu hallar istisna edilir, və bu halda Sığorta şirkətləri yalnız bu Sığorta Müqaviləsi ilə əhatə edilən müddət ərzində və həmin müddətlə məhdudlaşdırılmaqla Sığortalanmışın gəlirlərinə təsir edən itkilər üçün məsuliyyət daşıyır.

3. Sığorta Müqaviləsi ilə sığortalanan hər hansı mülkiyyətin istifadəsini, yenidən qurulmasını, təmirini və ya dağıdılmasını idarə edən hər hansı fərman və ya qanunun həyata keçirilməsi ilə itkinin artması.

4. Xüsusi olaraq sığortalanmış hallar istisna olmaqla bazarın itirilməsi və ya hər hansı dolayı itki.

5. Hər hansı bir şəxsə fiziki, mənəvi və ya maddi zərər nəticəsində yaranmış itki.

<u>MƏHDUDİYYƏTLƏR</u>

1. Sığorta şirkətləri aşağıdakıların ən azından daha çox məsuliyyət daşımır:

   a) hər hansı spesifik İşgüzar Fəaliyyətin Dayandırılması ilə cədvəldə göstərilmiş sığortalanmış məbləğ üzrə,

   yaxud

   b) Cədvəldə göstərilən Sığorta Məbləği birgə limitdən ibarət olarsa, İşgüzar Fəaliyyətin Dayandırılmasını əhatə etdikdə,

   Bu müddəa həmin itki ilə bağlı hər hansı bir hadisə nəticəsində işgüzar fəaliyyətin dayandırılmasına məruz qalan yerlərin sayından asılı olmadan tətbiq edilir.

2. Elektron məlumatların işlənməsi və ya elektron idarə edilən avadanlıq üçün və ya onlara aid olan informasiya vasitələri və ya proqramlaşdırma sənədlərinə ziyan dəyməsi və ya onların məhv olması ilə nəticələnən itki ilə bağlı sığortalanmış risklərlə sığorta şirkətlərinin məsuliyyət daşıdığı vaxt müddəti aşağıdakılardan artıq olmamalıdır:

   a) 30 ardıcıl təqvim günü və ya məlumatların surətlərindən və ya əvvəlcədən hazırlanmış orijinallarından yenidən bərpa edilməsi üçün lazımi prosedurların yerinə yetirilməsi və icrası ilə tələb olunan vaxt, hansı daha az olarsa; və ya

   b) Burada ziyan dəymiş və ya məhv edilmiş olaraq təsvir olunan digər mülkiyyəti yenidən qurmaq, təmir etmək və ya əvəz etmək üçün tələb olunan vaxt müddəti, lakin on iki (12) təqvim ayından artıq olmamaqla, bunlardan hansı daha artıq vaxt müddəti olarsa.

<u>TƏYİNATLAR</u>

1. <u>ÜMUMİ GƏLİRLƏR</u> aşağıdakı kimi təyin edilmiş itki olduğu zaman ilkin qiymətləndirmə və tənzimlənmə üçündür,

   Məbləğ:

a) məhsulun ümumi xalis satış dəyəri və ya malların satışı ,

və

b) Biznes fəaliyyətlərindən əldə edilmiş digər gəlirlər.

AŞAĞIDAKILAR ÜÇÜN XƏRCLƏR ÇIXILMAQLA

c) Məhsulun alındığı xammal ehtİyatları,

d) həmin xammal ehtiyatlarının tamamlanmış ehtiyatlara birbaşa ötürülməsi və ya Sığortalanmış tərəfindən satılmış xidmətlərin göstərilməsi zamanı sərf olunmuş materiallardan ibarət təchizatlar,

e) Materialların qablaşdırılması daxil olmaqla satılmış mallar,

f) Sığortalanmış tərəfindən satılmış xidmət(lər)in göstərilməsi zamanı birbaşa sərf olunmuş material və təchizatlar,

g) Müqavilə üzrə davam etməyən kənar şəxslər tərəfindən (Sığortalanmışın əməkdaşı olmamalıdır) yenidən satış üçün alınmış xidmət(lər),

h) Satılmış, lakin təchiz edilməmiş tamamlanmış ehtiyatın istehsal xərci və təmiz satış qiyməti arasındakı fərq,

Ümumi gəlirləri müəyyənləşdirərkən heç bir digər xərclər tutulmamalıdır .

Ümumi gəlirləri müəyyən edərkən, əsas diqqət itki və ya zərər və ya mümkün təcrübənin baş verməsindən əvvəlki tarixdə iş təcrübəsinə yetirilməlidir

2. XAMMAL EHTİYATLARI

Sığortalanmışın tamamlanmış çevirmək üçün qəbul etdiyi vəziyyətdə material.

3. EMALDA OLAN EHTİYATLAR

Sığortalanmışın məkanında yırtılma, köhnəlmə, mexaniki və ya digər istehsal prosesinə məruz qalan, ancaq tamamlanmayan xammal.

4. BAŞA ÇATMIŞ EHTİYAT

Qablaşdırma, göndərmə və ya satışa hazır olan Sığortalanmışın adi biznes prosesində olan Sığortalanmış tərəfindən istehsal edilən ehtiyat.

5. MALLAR

Sığortalanmış tərəfindən satış üçün saxlanılan və onun tərəfindən aparılmış istehsal əməliyyatlarının məhsulu olmayan mallar.

6. NORMAL

Heç bir itki baş vermədiyi halda mövcud olacaq vəziyyət.

# ELEKTRON CİHAZ VƏ AVADANLIĞININ SIĞORTASI